

## Enerji təhlükəsizliyinin təminatında AZƏRBAYCANIN MÜHÜM ROLU

5

SƏS
№ 128 (6569) 22 iyul 2022-ci il. Qiyməti 60 qəpik

# Bolqarıstan ilə Azərbaycan strateji tərəfdaşdırlar!



2

**Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstanın Baş naziri Kiril Petkov ilə görüşüb**

# Azərbaycan mətbuatı:

## 147 illik şərəfli tarixin qısa icmalı

1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin ilk nömrəsinin çapdan çıxması münasibətilə bu gün Milli Mətbuat və Jurnalistika Günü kimi qeyd olunur




8



12

## Yeni texnologiyaların tətbiqi Azərbaycanın inkişaf göstəricisidir

"ASAN xidmət" mərkəzlərinə 54 milyona yaxın müraciət daxil olub



**Anadolu Agentliyi: Prezident İlham Əliyevin qətiyyətlə söylədiyi "Qarabağa Böyük Qayıdış" başladı!**

3



**Erməni silahlıları ilə əlbir olduqları üzə çıxan RSK-nın məqsədi nədir?**

14



**"Dərinləşən media islahatları: Yeni hədəflərə doğru" mövzusunda konfrans keçirilib**

7

# İş tapmaq getdikcə niyə çətinləşir?



11

## Məktəblər açılmayacaq?



16

## Zəngilanın Ağalı kəndinə köç başlayıb!



# Bolqarıstan ilə Azərbaycan strateji tərəfdaşdırlar!

**İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Baş naziri Kiril Petkov ilə təkbətək görüşü keçirilib. Azərbaycan Prezidenti görüşdə qeyd edib ki, Bolqarıstan ilə Azərbaycan strateji tərəfdaşdırlar. Biz nisbətən yaxın vaxtda müvafiq Bəyannaməni imzalamışıq.**

Bir sözlə, bu, olduqca yüksək səviyyəli əməkdaşlıqdır. Əlbəttə, strateji əməkdaşlıq bir çox sahələri, o cümlədən enerji təhlükəsizliyini əhatə edir. Bu mövzu hazırda qlobal gündəliyin ən üstün mövzularından biridir. Bu və digər məsələlər bu gün müzakirə olunacaq. Şadam ki, biz enerji sahəsində aramızda iş birliyini qurmuşuq. Bolqarıstana Cənub Qaz Dəhlizi üzrə artıq birbaşa xətt gedir. Bu, təbii ki, gələcəkdə böyük potensialı olacaq uzunmüddətli əməkdaşlıqdır. Lakin nəinki enerji, o cümlədən ticarət, sərmayələr, birgə müəssisələrin yaradılması, turizm kimi digər sahələr də var. Dostlar arasında müzakirə olunacaq sahələr çoxdur. Ölkələrimiz dost ölkələrdir.

Daha sonra Prezident İlham Əliyevin Bolqarıstan Respublikasının Baş naziri Kiril Petkov ilə geniş tərkibdə görüşü keçirilib. Görüşdə çıxış edən Prezident İlham Əliyev bildirib ki, Bolqarıstanla Azərbaycan arasında strateji tərəfdaşlıq əməkdaşlığımızın inkişaf etdirilməsi üçün həqiqətən yaxşı əsasdır:


Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstanın Baş naziri Kiril Petkov ilə görüşüb





- Hörmətli Baş nazir və nümayəndə heyətinin üzvləri. Bir daha xoş gəlmisiniz. Elə indicə qarşılıqlı maraq doğuran bir çox məsələlərlə bağlı cənab Baş nazirlə çox yaxşı müzakirəmiz oldu və tərəfdaşlığımızın gücləndirilməsi üçün bir çox imkanları müəyyən etdik. Bu gün öncə müzakirə etdiyimiz kimi, Bolqarıstanla Azərbaycan arasında strateji tərəfdaşlıq əməkdaşlığımızın inkişaf etdirilməsi üçün həqiqətən yaxşı əsasdır. Biz bir neçə il əvvəl Strateji Tərəfdaşlıq barədə Bəyannaməni imzalamışıq. Hesab edirəm ki, bu sənədi iqtisadi, sənayenin inkişafı, ticarət, enerji, daşımalar, turizm, yüksək texnologiyalar və digər sahələrdə əməkdaşlığımızın olduqca praktiki nəticələrinə çevirmək vaxtı artıq yetişib. Əlbəttə ki, biz əsasən enerji təhlükəsizliyi məsələlərini müzakirə etdik və bu müzakirəni davam etdirəcəyik. Lakin, eyni zamanda, coğrafi yerləşməni, Avropa və Azərbaycanın dəmir yolu sistemini birləşdirmək üçün qonşularımızla həyata keçirdiyimiz layihələri, Azərbaycandan keçən yüklərin artan həcmini nəzərə alsaq, daşımalar sahəsində böyük potensial mövcuddur. Yalnız bu ilin beş ayı ərzində Azərbaycandan tranzit 30 faizdən çox artmışdır. Hesab edirik ki, bu, yalnız başlanğıcdır, çünki burada potensial var. Bir sözlə, geniş əhatəli məsələlər müzakirə edildi. Biz cənab Baş nazirlə artıq uzun müddətdir ki, bir-birimizi telefonla tanıyırıq. İndi isə artıq şəxsən tanış olduq.

Bolqarıstanın Baş naziri Kiril Petkov:

-Sağ olun, cənab Prezident. Çox məmnunam ki, bir-birimizlə şəxsən görüşürük. Mən artıq qeyd etdim və bir daha söyləmək istəyirəm, dostlar o vaxt dost olur ki, problemləri həll edirlər. Masa arxasında olarkən hamı dostdur. Lakin problemi birgə həll etməyə gəldikdə, dostlar yenə də yan-yana olmalıdırlar. Qeyd etmək istəyirəm, ehtiyac yarandığı zaman Siz Bolqarıstanın yanında oldunuz. Bolqarıstan isə Sizin yanınızda olacaq. Enerji sektorunda və ondan başqa sahələrdə bir çox imkanları müzakirə etdik.

Sizin yanaşmanızı dəstəkləyirəm ki, biz Strateji Tərəfdaşlıq sənədini imzaladıq, müzakirələr apardıq, indi isə onları reallığa çevirməliyik. Hökumətimiz indiki tərkibdə gələn bir neçə həftə ərzində, ola bilsin, qalacaq. Lakin qərarlar var və biz tam əminik ki, növbəti hökumət də bizim hökumət olacaq. Biz belə nəticəyə gəldik ki, texnologiya, logistika, Avropaya ixrac, enerji daşıyıcılarının paylanması kimi sahələrdə bir çox işlər görülə bilər.

# Mövlud Çavuşoğlu: "Normallaşma prosesində Ermənistandan səmimiyyət gözləyirik"

**Türkiyə və Azərbaycan olaraq Cənubi Qafqazda sülh və sabitlik istəyirik. Biz Ermənistan da daxil olmaqla, hər kəs üçün faydalı olan sülh arzu edirik. Qarabağ Zəfərindən sonra Azərbaycanın mövqeyi və bəyanatları ortada, bizim də açıqlamalarımız bəllidir.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu iyulun 21-də "TRT Haber" telekanalının canlı yayımında ifadə edib.




Azərbaycanın Qələbəsi ilə başa çatan 44 günlük müharibədən sonrakı proseslər, bölgədə münasibətlərin normallaşması istiqamətində Azərbaycan və Türkiyənin atdıqları addımlar, Ermənistan tərəfindən verilən bəzi qarşılıqlar və digər məsələlər barədə geniş məlumat verən naziri Mövlud Çavuşoğlu Ermənistanın baş naziri Nikol Paşinyan ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olduğunu, hökumət rəsmilərinin keçirdikləri ikitərəfli görüşləri xatırladaraq bölgədə həyata keçirilən beynəlxalq layihələrdən danışıb. Deyib ki, hazırda Orta Dəhliz böyük əhəmiyyət qazanıb.

Ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını xatırladan nazir Mövlud Çavuşoğlu Ermənistan ilə normallaşma prosesinə dair fikirlərini bölüşərək, Azərbaycan və Türkiyənin prosesi məsləhətləşmələr çərçivəsində irəli aparmaqda olduğunu bir daha vurğulayıb. O bildirib: "Azərbaycan və Türkiyə normallaşma prosesində səmimidir, Ermənistandan da eyni mövqeni gözləyirik".

Nazir Mövlud Çavuşoğlu diqqətə çatdırıb ki, Ermənistan hakimiyyəti sülh və normallaşma prosesi üçün qətiyyətli addımlar atmalıdır.

# Anadolu Agentliyi:

## Prezident İlham Əliyevin qətiyyətlə söylədiyi "Qarabağa Böyük Qayıdış" başladı!

**Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətlə söylədiyi "Böyük Qayıdış" və illər əvvəl işğal səbəbindən torpaqlarını tərk etmək məcburiyyətində qalan yüz minlərlə insanın öz yurduna qayıtmasını nəzərdə tutan proqram çərçivəsində ilk qayıdış həyata keçirilib. Bu sözlər Türkiyənin Anadolu agentliyinin Azərbaycanın işğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kəndinə iyulun 19-da əhalinin köçürülməsinə start verilməsi ilə bağlı məlumatında yer alıb.**

"Azərbaycanda işğaldan azad olunan bölgələrə "Böyük Qayıdış" başladı" sərlövhəli yazı Ağalıdan video və fotolarla təqdim olunub.

İnformasiyada həyatın yenidən qayıtdığı doğma torpaqlarımızda Böyük Qayıdışı təmin etmək üçün görülən yenidənqurma və işləri, bütün istiqamətlər üzrə infrastrukturun bərpası, genişmiqyaslı işlər və sosial layihələr barədə müfəssəl məlumat verilir. Diqqətə çatdırılır ki, insanlar doğma yurdlarına böyük sevinc hissi ilə qayıdır və dövlətlərinə olan tükənməz məhəbbətlərini ifadə edirlər.




# İstanbulda Azərbaycan, Pakistan və Türkiyə parlamentlərinin sədrlərinin İkinci Üçtərəfli Görüşü keçirilib

İyulun 21-də İstanbulda Azərbaycan, Pakistan və Türkiyə parlamentlərinin sədrlərinin İkinci Üçtərəfli Görüşü keçirilib. Görüşdən əvvəl tədbirin icraiyyə komitəsinin iclası olub. İclasda təşkilatı məsələlərə baxılıb, parlament rəhbərləri müzakirə olunan mövzular haqqında fikirlərini bildiriblər. Milli Məclisin sədri Sahibə Qafarova çıxışında deyib ki, Azərbaycan, Pakistan və Türkiyə parlamentlərinin üçtərəfli əməkdaşlıq formatı böyük əhəmiyyətə malikdir. Qardaş ölkələrimiz arasında münasibətlərin bugünkü yüksək səviyyəsi müxtəlif sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsini və gücləndirilməsini labüd edir. O qeyd edib ki, ölkələrimizin bir sıra qurumları, o cümlədən parlamentlərimiz arasında üçtərəfli formatda sıx əməkdaşlığın davam etdirilməsi bu prosesə əhəmiyyətli töhfə verir.



Sonra Azərbaycan, Pakistan və Türkiyə parlamentlərinin sədrlərinin ikinci üçtərəfli görüşü başlayıb.

Tədbirdə açılış nitqi ilə çıxış edən Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop iştirakçıları salamlayıb. Bu üç ölkə arasında münasibətlərin digər ölkələrin əlaqələrinə bənzəmədiyini vurğulayan TBMM-in sədri deyib: "Aramızdakı qardaşlıq bağları ortaq tarix, mədəniyyət, din ilə davamlı bəslənib güclənərək, daha da inkişaf edərək çox az sayda millət və ölkənin çata biləcəyi səviyyəyə yüksəlib. Türkiyə, Azərbaycan və Pakistan İslam dünyasının ən böyük demokratiyalarından üçü olaraq önə çıxır. Ölkələrimiz və xalqlarımız arasındakı müstəsna münasibətlər ən çətin dövrlərdə qarşılıqlı dəstəklə özünü göstərib".

Azərbaycanın Qarabağ bölgəsində ədalətin bərqərar olduğunu qeyd edən Mustafa Şentop Zəngəzur dəhlizinin bölgədə iqtisadi rifahı artıracağını bildirib.

Görüşdə çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycan parlamenti adından iştirakçıları salamlayaraq, bu tədbirin keçirilməsinə yaradılan şəraitə və səmimi qonaqpərvərliyə görə Türkiyə Böyük Millət Məclisinin rəhbərliyinə, professor Mustafa Şentopa minnətdarlığını bildirib. Milli Məclisin sədri bu görüşdə aparılacaq müzakirələrin və qəbul ediləcək qərarların üçtərəfli əməkdaşlığın ölkələrimizin və xalqlarımızın maraqları və rifahı naminə daha da möhkəmləndirilməsi və genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə inamını ifadə edib.

S.Qafarova bildirib ki, bir neçə gün əvvəl qardaş Türkiyə xalqı 15 İyul - Demokratiya və Milli Birlik Gününün altıncı ildönümünü qeyd edib. Həmin gün Türkiyə xalqı milli birlik və həmrəylik nümayiş etdirib, öz lideri, Prezident Rəcəb Tayyib Ərdoğanın ətrafında sıx birləşərək, Vətəninin müstəqilliyini, suverenliyini müdafiə edib, dövlətçiliyə və demokratiyaya sahib çıxıb. Milli Məclisin sədri dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını verən şəhidlərin əziz xatirəsinə dərin hörmət və ehtiramını ifadə edib. O qeyd edib ki, Azərbaycan xalqı və dövləti bu xəyanətkar dövlət çevrilişi cəhdini ilk dəqiqələrdən ən qəti şəkildə pisləyib, hər zamankı kimi qardaş Türkiyənin yanında olduğunu göstərib.




Milli Məclisin sədri Azərbaycan, Pakistan və Türkiyə parlamentlərinin üçtərəfli əməkdaşlığının müasir dövrümüzün reallıqlarından, zamanın tələbindən qaynaqlanan bir təzahür olduğuna əminliyini bildirib. Qeyd edib ki, Azərbaycanın həm Türkiyə, həm də Pakistanla ikitərəfli əlaqələri xalqlarımızın qardaşlığına, tarixi və mədəni bağlarına, qarşılıqlı hörmət və etimadına əsaslanır. Belə möhkəm təməllərə əsaslanan dövlətlərarası münasibətlərimiz ötən dövr ərzində davamlı və hərtərəfli inkişaf, müxtəlif sahələri əhatə edən sıx əməkdaşlıq, qarşılıqlı maraq doğuran məsələlər üzrə beynəlxalq səviyyədə birgə fəaliyyət və dəstəklə səciyyələnib. Sahibə Qafarova Azərbaycanın 30 ilə yaxın erməni işğalı altında olan torpaqlarını Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə azad etdiyini xatırladaraq deyib ki, Azərbaycan torpaqlarının işğaldan azad olunması işinə qardaş Türkiyə və Pakistanın həm beynəlxalq platformalarda, həm də İkinci Qarabağ müharibəsinin gedişində göstərdiyi açıq siyasi və mənəvi dəstək qardaş xalqlarımızın birlik və həmrəyliyinin ifadəsi olmaqla yanaşı, dövlətlərimiz arasındakı yüksək səviyyəli münasibətlərin də göstəricisidir. Şübhəsiz ki, bütün bunlar ölkələrimiz arasındakı əlaqələrin daha da gücləndirilərək, üçtərəfli və çoxtərəfli formatlarda davam etdirilməsini labüd edib.

Milli Məclisin sədri çıxışında iştirakçılara Azərbaycanın regionda sülh, sabitlik və davamlı iqtisadi inkişafın təmin olunması istiqamətindəki səyləri haqda da məlumat verib. Bildirib ki, bu gün ölkəmiz 30 il davam etmiş erməni işğalının dəhşətli nəticələrinin aradan qaldırılmasına çalışır. İşğal dövründə dağıdılmış bütün infrastruktur hazırda yenidən bərpa olunur.

Cari ilin mayında Fizuli və Şuşaya səfər etmiş Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop və Pakistan İslam Respublikası Milli Assambleyasının sədri Raca Pərviz Əşrəf dağıntıların miqyasının və aparılan yenidənqurma işlərinin əyani şahidi oldular. Bu gün "yaşıl enerji" zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda yeni şəhərlər və kəndlər inşa edilir. Artıq keçmiş məcburi köçkünlərin öz evlərinə mərhələli şəkildə geri qaytarılması prosesinə başlanıb.

Sahibə Qafarova təəssüflə qeyd edib ki, bu işlərdə ən mühüm problemlərdən biri işğal zamanı Ermənistan tərəfindən həmin ərazilərdə basdırılmış çoxsaylı minalardır. 2020-ci il noyabrın 10-dan bəri mina partlayışları nəticəsində 220-dən çox şəxs həlak olub və ya yaralanıb. Buna baxmayaraq, Azərbaycan minatəmizləmə fəaliyyətində hələ də ən az beynəlxalq dəstək alan ölkələrdən biridir.

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü və iştirakı ilə Azərbaycan və Ermənistan rəhbərlərinin 3 üçtərəfli görüşü keçirilib. Ermənistan Azərbaycanın təşəbbüsü ilə sülh müqaviləsinin əsasını təşkil edəcək beş əsas baza prinsipini rəsmən qəbul etdiyini bəyan edib. İyulun 16-da Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ilk ikitərəfli görüşü baş tutub. Buna baxmayaraq, Ermənistan sülh müqaviləsinin imzalanması üzrə danışıqlara başlamaq üçün konkret addımlar atmır, əksinə, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatla öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən imtina edir.

Halbuki, Ermənistan rəhbərliyi anlamalıdır ki, regionda real sülhə və sabitliyə nail olmağın yeganə yolu üzərilərinə götürdükləri öhdəliklərin yerinə yetirilməsidir. Zəngəzur dəhlizinin və regionda bütün kommunikasiyaların açılması regionun nəqliyyat potensialını xeyli artırmaqla yanaşı, Ermənistanın özünə də fayda gətirəcək.

Bildirilib ki, belə üçtərəfli görüşlər irəliyə doğru birlikdə addımlamaq baxımından çox əhəmiyyətlidir. Pakistan hər zaman olduğu kimi, bundan sonra da hər zaman Azərbaycanı və Türkiyəni dəstəkləyəcəyini hər platformada sübut edir. O, Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsinə diqqət çəkərək, regionda daimi sülhün və təhlükəsizliyin təmin olunmasının əhəmiyyətini vurğulayıb.

# “Rusiya tədarükünə alternativ: Aİ Azərbaycandan qaz idxalını ikiqat artırmaq istəyir”

**İyulun 18-də Bakıda imzalanan Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu Qırğızıstan KİV-lərinin də diqqət mərkəzində olub. Belə ki, turktoday.info sənədin Aİ ölkələri üçün böyük əhəmiyyət daşıdığını vurğulayıb.**

Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın artıq 15 ilə yaxın davam etdiyi qeyd olunur. Gürcüstan və Türkiyə ərazisindən keçməklə Avropaya çatdırılan Azərbaycan neftinin, həmçinin qazının həmin bölgədəki ölkələrin enerji təminatı üçün əhəmiyyətinin böyük olduğu vurğulanır.

Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin Aİ-nin şaxələndirilmiş enerji təminatı və bu işdə Azərbaycanı etibarlı tərəfdaş kimi yüksək qiymətləndirməsi xüsusi diqqətə çatdırılır. Aİ rəsmisinin Azərbaycanın bərpaolunan enerji sahəsində də çox böyük potensiala malik olduğunu qeyd etməsi də yazılarda öz əksini tapır.

Yazılarda Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşdə xüsusilə dənizdə külək enerjisi və yaşıl hidrogen ilə bağlı müzakirələrin aparıldığını vurğulayan Ursula Fon der Lyayenin sözlərindən bu sitat gətirilib: ”Bu gün imzalanan Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu ilə biz bu sahədə möhkəm əməkdaşlıq üçün güclü zəmin yaratmış olduq. Bununla da Azərbaycan tədricən Avropa İttifaqının neft və qaz təchizatçısından daha çox etibarlı bərpaolunan enerji təchizatçısına çevriləcək”.

Bundan başqa, Türkiyənin Anadolu Agentliyi Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin Azərbaycana səfəri, Prezident İlham Əliyevlə Bakıda keçirilən görüş və mətbuata birgə bəyanatlarla çıxış etmələri barədə geniş informasiyalar yayıb.

”Azərbaycan Avropa İttifaqına daha çox təbii qaz nəql edəcək” və ”Azərbaycan təbii qazının Avropaya çatdırılmasında Türkiyə tranzit ölkədir” sərlövhəli yazılarda xanım Ursula Fon der Lyayenin Azərbaycana səfərinin nəticələri barədə müfəssəl məlumat verilir.

Diqqətə çatdırılır ki, Avropa TAP marşrutu ilə nəqletmənin həcminin artırılmasını arzulayır və qarşıdakı bir neçə il ərzində bu marşrutla ötürücülük qabiliyyətinin 20 milyard kubmetrə çatdırılması mümkündür. Agentliyin hazırladığı infoqrafika Azərbaycanın karbohidrogen ehtiyatlarında mühüm hissəni təşkil edən təbii qazın Avropaya nəql edilməsi imkanları, eləcə də TANAP, TAP, Cənubi Qafqaz Boru Kəməri, bu layihələrin daşıyıcılıq imkanları barədə ictimaiyyətə məlumatlar çatdırır.

Bundan başqa, Almaniyanın ən nüfuzlu media orqanı olan ”Der Spiegel” həftəlik jurnalında ”Rusiya tədarükünə alternativ: Aİ Azərbaycandan qaz idxalını ikiqat artırmaq istəyir” sərlövhəli məqalə dərc edilib. Məqalədə müəlliflər Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin ”yeni qaz mənbələrini axtarmaq” üçün Bakıya səfərindən bəhs ediblər. Nəşrdə yazılır ki, burada o, Prezident İlham Əliyevlə Azərbaycandan tədarükün əhəmiyyətli dərəcədə artırılması haqqında saziş imzalayıb.

Müəlliflərin qeyd etdiyinə görə, Avropa İttifaqı Azərbaycanı daha etibarlı enerji təchizatçısı hesab edərək, yaxın illərdə buradan qaz idxalını əhəmiyyətli dərəcədə genişləndirməyi hədəfləyir.

Avropalılar qorxurlar ki, Rusiya qazının nəqli tezliklə tamamilə kəsilə bilər. Almaniya mətbu orqanı qeyd edir ki, bu, ”Şimal axını 1” qaz kəmərində təmir işlərinin yekunlaşacağı bu həftə aydın olacaq.

Aİ hazırda Xəzər dənizindəki ”Şahdəniz 2” yatağından təbii qazı Gürcüstan və Türkiyədən keçməklə İtaliyaya təxminən 3500 kilometr məsafədə nəql edən boru kəmərləri konqlomeratı olan Cənub Qaz Dəhlizi vasitəsilə 8 milyard kubmetr Azərbaycan təbii qazını idxal edir. ”Der Spiegel” Avropa Komissiyasının Prezidentinə istinadla yazır ki, yeni sazişə əsasən, hazırkı həcm bir neçə il ərzində ildə 20 milyard kubmetrə qədər artırılmalıdır. ”O, aralıq məqsəd kimi 2023-cü ildən idxal olunacaq təbii qazın həcmini 12 milyard kubmetr müəyyən edib”, - deyə nəşrin müəllifləri yekun olaraq qeyd ediblər.







**Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan memorandum dünya KİV-lərinin diqqət mərkəzindədir**







# Media nümayəndələri Ümummilli Liderin məzarını ziyarət ediblər





İyulun 21-də Milli Mətbuat Günü münasibətilə Medianın İnkişafı Agentliyinin, Audiovizual Şuranın və Azərbaycan Mətbuat Şurasının nümayəndələri Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar. SİA-nın verdiyi məlumata görə, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və görkəmli həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri qoyulub. Sonra Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabinin məzarı önünə əklil qoyulub, böyük mütəfəkkirin xatirəsi anılıb.

## “147 ildə mətbuatımız çox keşməkeşli yol keçib”




“Azərbaycan mətbuatı 147 ildir ki, yaranıb və bu 147 ildə mətbuatımız çox keşməkeşli yol keçib”. Bu fikirləri SİA-ya açıqlamasında ”Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı bildirib.

Onun sözlərinə görə, milli mətbuatımızın yaranması Həsən bəy Zərdabinin adı ilə bağlı olub: ”Bununla da Azərbaycanda ilk dəfə anadilli mətbuat orqanını yaradıb. O gündən bu günə qədər Azərbaycan mətbuatı, jurnalistikası və fədakar jurnalistlər Azərbaycan dövlətinin maariflənməsinə, informasiya almaq imkanlarına xidmət edir. Dövlət quruculuğu prosesində jurnalistlərin çox böyük xidmətləri olub. Azərbaycan mətbuat tarixinin müxtəlif mərhələri vardır. İlkin mərhələ ”Əkinçi” qəzetinin yaranması ilə başlayır. Sonrakı dövrlər 1905-1918-ci illəri əhatə edir. Bu dövrdə də Azərbaycanın çoxsaylı qəzetləri nəşr olunmağa başladı və jurnalistika sahəsi tam formalaşma mərhələsinə keçdi. 1918-1920-ci illərdə Cümhuriyyət dövrünə nəzər salsaq mətbuata yeni bir baxışın, yanaşmanın formalaşdığını görərik. Bu dövrdə Azərbaycan mətbuatı milli şüurun, milli ordunun, həmçinin təhsil sisteminin formalaşmasına öz töhfələrini verib. Sovetlər dönəmində də Azərbaycan jurnalistləri milli şüurun işartıları altında öz fəaliyyətlərini davam etdirdilər. Jurnalistikanın növbəti mərhələsi isə 1998-ci ildə senzuranın ləğvi ilə bağlıdır. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə senzura ləğv edildi. Bununla da Azərbaycan mətbuatının yeni mərhələsi başladı. 2000-ci illərdən sonra mətbuatda alternativ internet mediası anlayışı yarandı. Mətbuat özünün yeni bir mərhələsini yaşayır. İnternet mediası jurnalistlərin hazırladığı bir xəbərin, yazıların sərhədsiz şəkildə yayılmasına təkan verir. Hazırda mətbuatımız Azərbaycanın informasiya təhlükəsizliyini, milli maraqlarını öndə tutaraq öz fəaliyyətini davam etdirir. Bu peşə bayramı münasibətilə bütün həmkarlarımı təbrik edirəm”.

*Abutel İlhamqızı*

# Enerji təhlükəsizliyinin təminatında
# AZƏRBAYCANIN MÜHÜM ROLU

**Enerji təhlükəsizliyi barədə son dövrlər kifayət qədər eşidirik və bəlli olur ki, bu məsələ prioritet olaraq qəbul edilməkdədir. Xüsusilə, Avropanın enerji ilə təmin olunması, yəni enerji təhlükəsizliyi diqqət mərkəzindədir və bunun üçün davamlı səylərin də göstərildiyi göz önündədir. Hazırda Rusiya qazının Avropa bazarına tədarükündə yaranan fasilələrin fonunda avropalıların narahatçılıqları da başadüşüləndir və hadisələrin gedişi onu deməyə əsas verir ki, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın mühüm rola malik olduğu da qlobal miqyasda qəbul edilməkdədir.**






Qlobal beynəlxalq siyasi nizamın hazırki mərhələsində Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi baxımından Azərbaycanın artan rolunu, perspektivlərini etiraf etməmək mümkün deyil. Ölkəmiz Avropaya neft, eləcə də qaz ixrac edir və bunu davam etdirmək üçün kifayət qədər imkanlarımız, resurslarımız var. Nəzərə almaq lazımdır ki, Cənub Qaz Dəhlizi layihəsi çərçivəsində işlər uğurla davam etdirilir və həm TANAP, həm də TAP qaz kəmərləri artıq istismardadır.

Azərbaycan qazının nəqli artıq çoxdandır ki, reallaşdırılıb. Xatırladaq ki, artıq çoxdandır Türkiyə və Gürcüstanla yanaşı, Yunanıstan, Bolqarıstan və nəhayət İtaliya da Azərbaycan qazını istehlak edən ölkələrdəndir. Xüsusilə qeyd etmək yerinə düşərdi ki, yaxın gələcəkdə TAP kəmərinin şimal qoluna çevriləcək boru kəməri ilə də qaz nəql ediləcək və bundan sonra Azərbaycan qazının istehlakçıları sırasına Bosniya və Hersoqovinadan, Xorvatiyadan, Albaniyadan, hətta Monteneqrodan olan istehlakçılar da qatılacaq. Bunun üçün işlər uğurla davam etdirilir, müvafiq infrastruktur da yaradılır.

Qeyd olunduğu kimi, qlobal beynəlxalq siyasi nizam artıq dəyişib və Rusiya-Ukrayna müharibəsinin fonunda Rusiyaya qarşı sanksiyalara adekvat cavab olaraq bu ölkənin qazının Avropaya tədarükündə fasilələr yaranıb. Nəticədə Avropada enerji təhlükəsizliyi baxımından həyəcan təbili çalınır və belə olan halda avropalılar alternativ mənbələr haqqında düşünməli olublar. Məsələ burasındadır ki, artıq Azərbaycan qazının tədarükü daha məqbul hesab olunub və bu da ölkəmizə olan güvənin, etibarın, eləcə də potensialımızın olduğundan xəbər verir. Hər halda Avropa öz enerji təhlükəsizliyinin təminatı üçün əbəs yerə Azərbaycanı seçməyib və Avropa İttifaqı rəsmilərinin Azərbaycanla əməkdaşlıqdan məmnun olduqlarını dəfələrlə bildirmələri də təsadüfi deyil.

Bu günlərdə, daha dəqiq desək, 18 iyul tarixində Avropa Komissiyasının Prezidenti xanım Ursula fon der Lyayenin Azərbaycana gəlişi sıradan bir səfər deyildi. Qeyd edək ki, Avropa Komissiyasının Prezidenti Bakıda olarkən enerji sahəsində əməkdaşlığa dair Azərbaycan Prezidenti İlham Əliyevlə memorandum imzalandı. Sənəddə bir çox məsələlər, eləcə də Cənub Qaz Dəhlizinin imkanlarının ikiqat artırılması öz əksini tapır. Qeyd olunur ki, Rusiya qazının tədarükündə yaranan fasilələrin fonunda Avropa İttifaqına qaz tədarükünü Azərbaycan 2021-ci ildəki səkkiz milyard kubmetrdən 2022-ci ildə gözlənilən on iki milyard kubmetrə qədər qaldıracaq. Bu hələ son nəticə deyil və artıq 2027-ci ilə qədər Azərbaycan qazının idxalının iki dəfə artırılacağı nəzərdə tutulur.

Əlbəttə ki, Avropaya nəql olunan qazın miqdarının artırılması iqtisadi baxımdan səmərəlidir və büdcə gəlirlərinin artması deməkdir. Bu, Azərbaycan iqtisadiyyatına müsbət mənada təsirsiz ötüşə bilməz və müsbət nəticələr verəcəyi də danılmazdır. Diqqətə çatdıraq ki, təkcə iqtisadi deyil, bir çox aspektdən yanaşdıqda, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın mühüm rolunun olması və bundan sonra daha da artması təqdirəlayiqdir. Artıq Azərbaycan bütövlükdə Avropa üçün maraqlı tərəfdaş olmaqda davam edir və ölkəmizin maraqları da ön plana keçir. Azərbaycan getdikcə daha böyük nüfuza malik olur və ölkəmiz söz sahibi kimi bütün Avropada qəbul edilir.

Sözsüz ki, Avropanın enerji təhlükəsizliyini, tələblərini, eləcə də daxili tələbləri ödəmək üçün kifayət qədər qaz ehtiyatları və hasilat olmalıdır. Bu baxımdan diqqətə çatdıraq ki, Azərbaycanın ən böyük qaz yatağı olan "Şahdəniz" qaz-kondensat yatağından cari ilin sonunadək iyirmi altı milyard kubmetrə çatacağı gözlənilir və kifayət qədər böyük göstəricidir. Əlbəttə ki, get-gedə hasilatın daha da artmasını müşahidə etməyimiz nikbin proqnozlar vəd edir. Beləki, ötən il "Şahdəniz" qaz-kondensat yatağında 2020-ci ilin hasilatından 27,1 faiz artıq, yəni, 22,7 milyard kubmetr qaz hasilatının olması bunu deməyə əsas verir. Onu da nəzərə çatdırmaq yerinə düşərdi ki, Azərbaycanın ən böyük qaz yatağı olan "Şahdəniz" qaz-kondensat yatağının ehtiyatları bir trilyon həddində qiymətləndirilir.

Azərbaycanın təsdiqlənmiş qaz ehtiyatları təkcə "Şahdəniz" qaz-kondensat yatağında olan ehtiyatlardan ibarət deyil. "Abşeron", "Babək", "Ümid", "Azəri-Çıraq-Günəşli" yataqları kimi başqa digər mənbələr də var. Ölkəmizin 2,6 trilyon kubmetrə yaxın təsdiqlənmiş qaz ehtiyatlarının olduğu ortaya çıxır ki, bu da həm Avropaya qaz tədarükünü artırmaq, həm də artan daxili tələbatı ödəmək potensialının, eləcə də, işğaldan azad edilmiş ərazilərin tələbatının ödənilməsi üçün ehtiyatların olması deməkdir. Təbii ki, qaz yataqlarında hasılatın ilbəil artması onu deməyə əsas verir ki, Azərbaycan hələ bundan sonra, gələcəkdə də Avropaya qaz tədarükü ilə bağlı tələbatı ödəməyə hazırdır.

Qeyd olunan statistiq rəqəmlər göstərir ki, enerji təhlükəsizliyinin təminatı baxımından ölkəmizin resursları kifayət qədərdir. Bu isə göründüyü kimi, layiqincə qiymətləndirilir və Avropa Komissiyasının Prezidenti xanım Ursula fon der Lyayenin Azərbaycana gəlişi, enerji sahəsində əməkdaşlığa dair memorandumun imzalanması da deyilənləri təsdiq edir. Təsdiq edir ki, həqiqətən də Enerji təhlükəsizliyinin təminatında azərbaycanın mühüm rolunun olduğu, bundan sonra da olacağı qlobal miqyasda qəbul edilir.

***İnam Hacıyev***

# Müftə olaraq havaya buraxılan rus qazı...

*Avropa İttifaqı qışa Rusiya qazı olmadan hazırlaşmağa başlayıb*

**...Bu arada Avropanın daxili bazar üzrə komissarı Tyerri Breton Avropa İttifaqının ilk dəfə olaraq qışı Rusiya qazı olmadan keçirməyə hazırlaşmaq qərarına gəldiyiklərini bildirib. SİA-nın əldə etdiyi məlumata görə, bu barədə xəbəri TASS yayıb.**

Beləliklə, Breto qeyd edib ki, Qərb ölkələri nüvə və kömürlə işləyən elektrik stansiyalarının fəaliyyətini bu il və bəlkə də gələn il uzada bilərlər. "Biz belə qərara gəldik: Rusiya qazı olmadan qışa hazırlaşırıq. Bu qışdan və bəlkə də gələn qışdan çıxmaq üçün Avropa İttifaqı ölkələri öz nüvə və ya kömür stansiyalarının fəaliyyətini uzada bilərlər".

Deyim ki, bunu Breto bildirib. Maraqlıdır ki, öz növbəsində Avropa Komissiyasının sədr müavini Frans Timmermans də alternativ enerjiyə keçidin vacibliyini vurğulayıb.

Qeyd edim ki, siyasətçi həmkarından fərqli olaraq Timmermans burada Rusiyadan alınan qazın qiymətinə də, yəni bu qiymətin əvvəlkindən xeyli baha olduğuna da diqqət çəkib.

Xatırladım ki, daha əvvəl İsveçrə Elektrik Şirkətləri Assosiasiyasının direktoru Maykl Frank enerji resurslarının çatışmazlığı səbəbindən İsveçrə elektrik enerjisinin elektrik kəsilməsinə keçidi nəzərdən keçirdiyini bildirmişdi. Belə ki, ölkə rəsmisinin sözlərinə görə, ölkədə enerji böhranının yaranmasının səbəbləri Rusiya Federasiyasından tədarükün azalmasından sonra qazın olmaması və Fransada AES-in texniki xidmət üçün dayandırılmasıdır.

Təbii ki, Qərb ölkələri ilə bağlı məsələ məlum. Yəni onlar belə demək olarsa, "tanrının ümidinə qalıblar"?







Maraqlıdır, əgər Rusiyanın Qərb bazarı bağlanırsa, görən Kreml indi çıxardığı bu qədər qazı neyləyəcək? Qetd edək ki, Rusiyadan dünyanın 29 ölkəsinə ixrac olunan qazın həcmi ildə təqribən 13,805 mlrd. kubmetr təşkil edir. Onu da deyim ki, bu gün dünyanın ən iri qazlı qaz sahələri Rusiyada yerləşir və Rusiya dünyanın ən iri qaz ixracatçısıdır. Təsadüfi deyil ki, ötən il rusların təkcə qazdan gəlirləri 8,337 mlrd. dollar təşkil etmişdi.

Bu il isə Putin Rusiyanın "üstünə qələn Qərbi cəzalandırmaq üçün" onlara satılan qazın qiymətində artımlar etdi, daha sonra rus qazını qiymətdən düşən rus rubluna təklif etdi və... bu da sonu. Yəni undi rusun qazı alıcısız qalıb.

Yeri gəlmişkən, bu sahənin mütəxəssislərinin dediklərinə istinadən bildirim ki, istismara verilən neft və ya deyək ki, su mənbələrini müəyən dövr üçün kranı keçirməklə bağlamaq olur. Amma istehsal olunan qazı ya anbarlara vurmalısan, anbar dolarsa və əgər qazın alıcısı yoxsa, bu halda onu havaya buraxmalısan...pulsuz, parasız, yəni müftə.

Deyilənə görə, bu gün Rusiyada bütün qaz anbarları qazla doludur. Yəni ruslarlın qaz vurmağa anbarları qalmayıb. Ona görə də, çıxardıqları qazı müftə olaraq havaya buraxmasınlar deyə, dəyər-dəyməzinə satmaq üçün alıcı gəzirlər. Amma bu dəfə Qərbdə yox, Şərq ölkələri arasında...

***Ağasəf Babayev***

# AHİK-in təşkilatçılığı ilə Milli Mətbuat Gününə həsr olunmuş tədbir keçirilib



Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası Milli Mətbuatın 147-ci ildönümü münasibətilə jurnalistlər üçün bayram şənliyi təşkil edib. SİA-nın verdiyi məlumata görə, tədbirdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Akif Təvəkküloğlu çıxış edərək 147 illik mətbuatın indiki dövründən və dövlət ilə mətbuat arasındakı münasibətlərdən, Prezidentin mətbuata, media nümayəndələrinə göstərdiyi yüksək diqqət və qayğıdan danışıb. O bildirib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi kursun məntiqi nəticəsi kimi bu gün ölkədə azad, demokratik və güclü mətbuat var. Hazırda müstəqil mətbuatın formalaşması və inkişafına xidmət edən siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

Daha sonra tədbir nahar və çay süfrəsi arxasında davam etdirilib.

# Nəsimi rayonunda Milli Mətbuatın 147 illiyi ilə əlaqədar tədbir keçirilib

***Dünən Nəsimi rayon İcra Hakimiyyətində Milli Mətbuatın 147 illiyi ilə əlaqədar tədbir keçirilib. SİA xəbər verir ki, tədbirdə Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov, "SƏS" Media qrupun rəhbəri Bəhruz Quliyev, "Xalq" qəzetinin baş redaktoru Həsən Həsənov, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, mətbuat nümayəndələri və qazilər iştirak ediblər.***



Görüşü giriş sözü ilə açan Nəsimi rayon İcra Hakimiyyətinin Başçısı Asif Əsgərov qonaqları salamlayaraq bildirib ki, 147 illiyini qeyd etdiyimiz Azərbaycan Milli Mətbuatı böyük və şərəfli inkişaf yolu keçib, bütün dövrlərdə qabaqcıl ideyaların carçısı olub. Mətbuatımız mütərəqqi ənənələri formalaşdıraraq cəmiyyət qarşısında üzərinə götürdüyü missiyanı layiqincə yerinə yetirib.

Rayon İcra Hakimiyyəti tərəfindən kütləvi informasiya vasitələri ilə sıx və məhsuldar əlaqələrə hər zaman mühüm əhəmiyyət verildiyini qeyd edən Asif Əsgərov vurğulayıb ki, Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olub, cəmiyyəti düşündürən problemləri, dövrün mütərəqqi ideyalarını əks etdirib, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynayıb.

Azərbaycanın ilk milli qəzeti olan "Əkinçi" qəzetinin birinci nömrəsinin çapdan çıxdığı gün - 22 iyul Azərbaycan Milli Mətbuat günü elan edilib. Müstəqilliyin əldə edilməsindən sonra informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirib. Artıq Azərbaycan mətbuatı həm kəmiyyət, həm də keyfiyyət baxımından region ölkələrini qabaqlayır. Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzuranın ləğv edilməsi kütləvi infromasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verib.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov, "Xalq Qəzeti"nin baş redaktoru Həsən Həsənov, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev və "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə çıxış edərək milli mətbuatımızın zəngin və şərəfli yoluna nəzər salıb, Azərbaycan müstəqillik əldə etdikdən sonra mətbuat sahəsində əldə olunan uğurlardan danışıb, mətbuat işçilərinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə mətbuat işçiləri adından minnətdarlıqlarını bildiriblər. Tədbirin sonunda Milli Mətbuat günü münasibətilə KİV nümayəndələrinə Nəsimi rayon İcra Hakimiyyəti tərəfindən hədiyyələr təqdim olunub.

# İnformasiya müasir dünyanın canıdır

*"Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Həsənoğlunun yap.org.az-a müsahibəsi*

***- Alqış müəllim, 147 yaşı olan Azərbaycan mətbuatının inkişaf yolunu və hazırkı vəziyyətini necə dəyərləndirirsiniz?***

- Mətbuat yaranandan bəri onun tarixi, təyinatı, rolu, imkanları barədə müxtəlif fikirlər söylənilib. Bir-birindən fərqli dəyərləndirmələr mövcuddur. İstinad edilməyə, xatırlanmağa layiq onlarla, yüzlərlə belə mötəbər mənbələr, sanballı müəlliflər var. Yəqin ki, bundan sonra da proses davam etdikcə yeni, bir-birindən orijinal yanaşmaların şahidi olacağıq.

Amma məncə, müasir dövrümüzdə mətbuatın yerini ən dəqiq və qeyri-adi bir həssaslıqla müəyyənləşdirən kamil düşüncə ulu öndərimiz Heydər Əliyevə məxsusdur. Yəqin xatırlayarsınız, 1993-cü ildə iyunun 15-də Milli Məclisin sədri seçilən Heydər Əliyev növbəti iclasların birində belə bir bəyanat səsləndirmişdi: "Mətbuat, informasiya bu gün müasir dünyanın canıdır". Ulu Öndərimizin həmin fikri aktual olaraq qalır. Bu fikrin və məntiqin davamı olaraq Ümummilli Liderimiz hakimiyyətə qayıdışının ilk günlərindən ölkəmizin düşdüyü informasiya blokadasını yarmaq üçün fəaliyyətə başladı. Onun hər müsahibəsi, hər səfəri məhz bu məqsədə xidmət edirdi. Heç təsadüfi deyildi ki, Azərbaycanın xəritəsi əlində Avropanı az qala addım-addım dolaşıb Azərbaycan həqiqətlərini dünyaya təbliğ edirdi. Belə məzmunlu saysız-hesabsız faktlar sadalamaq mümkündür.

Ümumiyyətlə, dahi öndərimizin hər addımının informativ yükü və dövlətçilik məzmunu vardı. O vaxtlar Heydər Əliyevin qəbullarından (xarici ölkə nümayəndələrindən, dövlət rəhbərlərindən tutmuş adi qonağa kimi) geniş reportajlar verilirdi. Bəzən məhdud dünyagörüşlü adamlar bu reportajların nəyə hesablandığın anlamaqda çətinlik çəkirdilər. Əslində, həmin reportajlar bir əyani vəsait idi. Bu üsulla Heydər Əliyev müstəqilliyini yenicə elan etmiş, ciddi problemlərlə üzləşən bir ölkənin vətəndaşını, siyasətçisini, ziyalısını, alimini, qocasını, gəncini, məktəblisini proseslərin hansı məcrada getdiyi və hansı mərhələdən necə keçdiyi barədə məlumatlandırırdı. Başa düşənlər üçün həmin reportajlar adi efir nümunəsi deyildi, Heydər Əliyev məktəbinin ustad dərsləriydi.

Bu gün qeyd-şərtsiz qəbul edilən bir qənaət var: Azərbaycanın siyasi təqvimi Heydər Əliyevin



adıyla bağlıdır. Heydər Əliyevin adı həm də bizim mətbuat tariximizə böyük hərflərlə yazılıb. Onun fəaliyyəti təkcə ölkəsini informasiya blokadasından çıxarmaqla kifayətlənmədi. O həm də informasiya mühitinin özünün liberallaşması və blokadadan çıxması üçün tarixi qərarlar qəbul etdi.

Fakt budur ki, Azərbaycan mətbuatı yarandığı gündən - "Əkinçi" qəzetindən başlayaraq ötən əsrin 90-cı illərinə qədər senzuranın ağır şərtləri altında fəaliyyət göstərib. Milli mətbuatımızın üzərindən senzuranın götürülməsi Heydər Əliyevin müstəsna xidmətlərindən biridir. Azərbaycan mətbuatının son 147 ildə dərc etdiyi ən dəqiq və ən gözəl xəbər də Heydər Əliyevin qurtuluşçuluq missiyasının təkzibedilməz və heç vaxt təkzib edilməyəcək bir məqamıdır. Belə ki, 2 il əvvəl Azərbaycan mətbuatı Şuşanın azad edilməsiylə bağlı Ali Baş Komandan İlham Əliyevin müjdəsini tarixinin və taleyinin baş xəbəri olaraq dərc etdi.

Çox maraqlı bir məsələni də qeyd etmək istərdim. Ulu öndərimizin Moskvadan Bakıya və oradan Naxçıvana dönüşü ilə milli mətbuatımızın təvəllüdü eyni günə -22 iyula təsadüf edir. Bu tarixi günlər arasında o qədər doğmalıq, daxili bir bağlılıq, vəhdət və ardıcıllıq var ki, mən bunu sadəcə faktların üst-üstə düşməyindən daha çox missiyaların bir-birini tamamlaması və davam etməsi kimi dəyərləndirərdim...

***- Yazılarınızda, müsahibələrinizdə hər zaman qeyd edirsiniz ki, Ulu Öndərimizin jurnalistlərə qarşı spesifik, doğma bir münasibəti vardı...***

Elədir. Amma xüsusi vurğulamaq gərək ki, Heydər Əliyevin jurnalistlərə, mətbuata münasibəti ümumilikdə onun sözə münasibətindən qaynaqlanırdı. Onun mətbuata, yazıçıya, jurnalistə münasibəti heç vaxt mövsümi xarakter daşımayıb, cari hədəflərə ünvanlanmayıb. Onun mətbuatla davranışının əsasında mühüm bir strateji xətt, dərin bir dövlətçilik anlayışı dayanırdı. Heydər Əliyev üçün söz enerji daşıyıcısı, həm də bir alternativsiz enerji daşıyıcısı idi. O, XX əsrin nadir, azsaylı siyasi liderlərindəndir ki, sözün enerjisini bütün çalarlarıyla duya bilir, səfərbər edir və mili dövlətçilik maraqları, cəmiyyətin bütövlüyü naminə yönləndirə bilirdi.

Gəlin bəzi tarixi hadisələri yad edək.

1990-cı ilin qanlı yanvar faciəsini götürək. Yanvarın 20-də xalqımız fiziki və mənəvi baxımdan əzilmişdi. Xalqımız və tariximiz böyük bir sual qarşısında təkbətək və köməksiz qalmışdı: bundan sonra necə olacaq?

Azərbaycan xalqı yenidən toparlanıb, ayaq üstə dura biləcəkmi? Bunu bacaracaqsa, bu direniş nəyin və kimin hesabına baş verəcəkdi?

Belə bir çətin vaxtda Heydər Əliyev səhhətindəki problemlərə və şəxsinə qarşı təhdidlərə baxmayaq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi. Kremlin qulağının dibində və sovet rəhbərliyinin gözünün içinə dik baxaraq bütün dünyaya bəyan etdi ki, Azərbaycan xalqı haqlıdır, bu mübarizədə o tək və köməksiz deyil, onun Heydər Əliyev kimi Ali oğlu və Lideri var. Həmin gün Heydər Əliyev sözünün gücü və gurşad enerjisi ilə Azərbaycan xalqına təpər verdi, inam aşıladı, yıxıldığı yerdən ayağa qaldırdı.

Başqa bir misal. 1993-cü ilin 4 oktyabrında Azərbaycan dövləti təhdidlə qarşılaşmışdı. Azərbaycan Prezidenti həmin gecə xalqa müraciət etdi. O həyəcanlı günlərdə edilən müraciətin ayrı-ayrı cümlələri indi də hafizəmdədir.

Müraciətdə deyilirdi: "Analar, bacılar, qardaşlar. Gecədən xeyli keçsə də, təcili olaraq prezident sarayının qarşısına gəlin, sizə sözüm var". O gecə Heydər Əliyevin bir sözüylə bütün Azərbaycan ayağa qalxmışdı. Heydər Əliyev sözünün gücüylə Azərbaycan xalqını ətrafında birləşdirib dövlətimizə qarşı yönəlmiş təhlükəni dəf edə bildi, terrorçu qüvvələri, silahlı birləşmələri zərərsizləşdirdi.

İndi biz birlikdən, bütövlükdən çox rahatlıqla danışırıq. Amma bu birliyə nail olana qədər Azərbaycan xalqı çox ağrılı proseslər yaşayıbdır. Acı olsa da, etiraf etmək lazımdır ki, xalqımızın uzun onilliklər, əsrlər boyu bir məxrəcə gəlməsi üçün çarə axtarıblar, səbəb gəziblər. Amma milli birliyə nail ola bilməmişik. Təəssüf ki, bir gündə yüz yerə, min yerə parçalanmaq üçün bəhanələr asanlıqla tapılıb, nəticədə zaman-zaman yüz yerə, min yerə parçalanmışıq. Heydər Əliyev yeganə milli faktorudur ki, uzun əsrlərdən sonra Azərbaycan xalqı onun böyük adı və böyük sözü ətrafında birləşə, ortaq məxrəcə gələ bildi.

İndi ötən günləri təhlil edərək çox asanlıqla deyirik, "1993-cü ildə AXC-Müsavat hakimiyyəti xalqın tələbi ilə Heydər Əliyevi hakimiyyətə dəvət etdi", "xalq Heydər Əliyevi hakimiyyətə gətirdi" və sair. İndi bu ifadələrin ciddi redaktəyə ehtiyacı var.

Xalq Heydər Əliyevi hansı hakimiyyətə dəvət etmişdi? Halbuki 93-cü ilin qızmar iyun günlərində Azərbaycan hakimiyyəti, dövləti adına heç bir ciddi nişanə, atribut yox idi. Azərbaycan cəmiyyəti paramparça, Azərbaycan dövləti çilik-çilik edilmişdi.

Bu bir gerçəklikdir ki, maddi, maliyyə, hərbi resursların məhdud olduğu 90-cı illərdə Azərbaycan xalqı yalnız Heydər Əliyev sözünün enerjisi hesabına yaşadı, fəaliyyət göstərdi, müstəqil Azərbaycan dövlətinin əsaslarını möhkəmləndirə bildi.

Ona görə də Heydər Əliyev fenomeninin mahiyyətini onun sözə münasibətini nəzərə almadan sona qədər dərk etmək mümkün deyil.

***- Hazırda ənənəvi medianın bəzi obyektiv çətinliklərlə üzləşməsi dünyanın reallığıdır. Ölkəmizdə çap mediasının qayğıları və inkişafı haqqında nə deyə bilərsiniz?***

- Bu gün bu sahədə həllini gözləyən bir sıra məsələlər var. Onları doğuran səbəblər isə kifayət qədər genişdir. Yalnız bir səbəb üzərində dayanmaqla problemlərin həlli yollarını göstərmək olmur. Amma bütün obyektiv və subyektiv çətinliklərə rəğmən dövlətin ənənəvi medianın yaşamasında və inkişafında maraqlı olduğu ortadadır. Media haqqında mükəmməl deyə biləcəyimiz qanun qəbul olunub. Son vaxtlar çap mediasının inkişafında müsbətə doğru dəyişikliklər baş verir. Dövlət çap mediasının yaşaması üçün gərəkən bütün addımları atır. Çap mediasının yaşaması həm də onun oxunmasından birbaşa asılıdır. Bu da peşəkarlıqla, cəmiyyətin mütaliəyə münasibəti ilə bağlıdır.

Oxumağa, mütaliəyə münasibət heç vaxt birmənalı olmayıb. Ancaq bir həqiqət mövcuddur ki, bəşəriyyət özünün cahil keçmişiylə yazıyla, yazı mədəniyyəti vasitəsilə vidalaşa bilib.

Mən həmişə deyirəm və o fikrimi bir daha təkrarlamaq istəyirəm. Hazırda çap mediasını sıxışdırmaqda iddialı görünən onlayn media hadisəni ictimai fikrə, milli şüur hadisəsinə çevirmək gücündə deyil. Sadəcə olaraq onlayn media ictimai fikir üçün xammal təklif edə bilir. Onlayn medianın tamaşaçısı daha çoxdur, amma onu nəzərə almalıyıq ki, ictimai fikir konkretləşdirilmiş və oturuşmuş düşüncə tərzidir. Onlayn media, sosial şəbəkələr düşüncə tərzi formalaşdıra bilmir. Düşüncə tərzini yazılı mətbuat, çap mediası yarada bilər və yaradır. Mən yenə o fikirdəyəm ki,- əlbəttə ki, mən bunu çap mediasını təmsil etdiyimə görə demirəm,- bəşəriyyətin gələcəyini quranlar oxucuların içərisindən çıxacaq, tamaşaçıların yox.

# "Dərinləşən media islahatları: Yeni hədəflərə doğru" mövzusunda konfrans keçirilib

21 iyul tarixində - Milli Mətbuat Günü ərəfəsində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən "Dərinləşən media islahatları: Yeni hədəflərə doğru" mövzusunda konfrans keçirilib. SİA-nın verdiyi məlumata görə, beynəlxalq media və ictimaiyyət nümayəndələri, xarici və yerli media ekspertlərinin iştirak etdiyi konfransın təşkil edilməsində məqsəd Azərbaycan mətbuatının keçdiyi inkişaf yolu, müasir dövrdə media islahatları, əldə olunan ilkin nəticələr və təhlilə yönələn fikir mübadiləsinin aparılmasıdır. MEDİA-nın İcraçı direktoru Əhməd İsmayılov açılış nitqində bildirib ki, Medianın İnkişafı Agentliyi ilk növbədə media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, maddi-texniki və hüquqi bazalarının möhkəmləndirilməsi, infrastrukturun modernləşdirilməsi, müvafiq sahədə yeni iqtisadi modelin yaradılmasını hədəfləyir və bu istiqamətdə atılacaq addımlara dəstək göstərir. Konfrans "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəylinin moderatoru olduğu panel sessiyanın müzakirəsi ilə davam edib.




Paneldə çıxış edən Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova bildirib ki, Ümummilli Liderin həyata keçirdiyi fundamental islahatlar nəticəsində müstəqil Azərbaycanın informasiya siyasətinin prioritetləri müəyyən edilmiş, senzura ləğv edilmiş, media üzərində dövlət nəzarəti aradan qaldırılmış, onun maddi- texniki bazası möhkəmləndirilmiş, yeni inkişaf perspektivləri açılmışdır. Səadət Yusifova cəmiyyətin həyatında medianın rolunun durmadan artdığını deyib, medianın fəaliyyətində hər zaman obyektivlik, modernləşmə, rasionallıq, kreativlik, sosial məsuliyyət prinsiplərinin, milli maraqların daim rəhbər tutulmasının zəruriliyini vurğulayıb.

Konfrans çərçivəsində MEDİA-nın yenilənmiş veb-saytının təqdimatı olub. Agentliyin nümayəndəsi Ləman İsgəndərova bildirib ki, sayt ümumi dizayn, məzmun, istifadəçi rahatlığı, texniki imkanlar nəzərə alınmaqla yenidən qurulub. Yenilənmiş veb-sayt informativ olmaqla yanaşı istifadəçilər üçün daha əlçatan olub.

# Azərbaycan mətbuatı:

## 147 illik şərəfli tarixin qısa icmalı

**1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin ilk nömrəsinin çapdan çıxması münasibətilə bu gün Milli Mətbuat və Jurnalistika Günü kimi qeyd olunur**

**İbtidai insanlar tərəfindən əsası qoyulan informasiya çatdırmaq prosesi bizim eradan əvvəl II əsrin ortalarında ilk qəzetin yaranması ilə növbəti mərhələyə qədəm qoyub. Həmin dövrdə Roma küçələrində səyyar satıcılar "Acta populi diurna" ("Xalqın gündəlik həyatı") adlı qəzeti reklam ediblər. Lakin Yuli Sezarın dövründə buna son qoyulub və onun göstərişi ilə Senatın iclaslarının hesabatları, sərkərdələrin göndərdiyi məlumatlar, qonşu dövlətlərin səfirləri barədə xəbərlər vərəqələrdə yerləşdirilməyə başlanıb.**

### "Əkinçi"dən başlayan şərəfli yol

Qəzetlərin indiki formatı isə XVI əsrdə formalaşıb. Qonşu Rusiyada ilk qəzet "Kurantı" adlanıb və onun günümüzə qədər saxlanmış ən qədim nüsxəsi 1621-ci ilə aiddir. İlk çap qəzeti isə I Pyotrın vaxtında, 1702-ci ildə satışa çıxarılıb və "Vedemosti" adlanıb.

Çap maşınının ixtirası bəşəriyyəti yeni sivilizasiyaya apardı. İnsanın tirajlanmış sözə, informasiyaya ehtiyacı özünü çox tez büruzə verdi və bəşər tarixində media epoxası başladı.

İndi insanlar geniş informasiya mənbələrinə yaxın olmaq, cəmiyyətdə baş verənlər haqda operativ və obyektiv məlumat almaq, elmi, texniki, siyasi, iqtisadi və digər sahələrdə gedən prosesləri izləmək məcburiyyətindədir.

Dünya jurnalistikası və informasiya sektoru hazırda sürətli yüksəliş dövrü keçirir və bu proses Azərbaycana da sirayət edir. Azərbaycan dünya ölkələri arasında mətbuatın yaranma tarixi və inkişafına görə ön yerlərdən birini tutur. Ona görə də istərdim ki, öncə Azərbaycan mətbuat tarixinə qısa bir səyahət edək.

Azərbaycanda çıxan ilk qəzet "Bakinski listok" hesab edilir. Qəzetin redaktoru Bakı Realni Gimnaziyasının müəllimi Xristian Sink idi. Rus dilində çıxan qəzetin ilk nömrəsi 1871-ci ilin martın 19-da (köhnə təqvimlə 6-da) dərc olunmuşdur.

Azərbaycandilli mətbuatımızın tarixi isə 1875-ci ildən, Həsən bəy Zərdabinin yaratdığı "Əkinçi" qəzeti ilə başladı. Görkəmli maarifçi Həsən bəy Zərdabi xeyli əziyyətdən sonra 1875-ci ilin 22 iyulunda Bakıda qubernator mətbəəsində qəzetin ilk nömrəsinin nəşrinə nail ola bilmişdi. Bu hadisə bir çox dünya ölkələrində hələ mətbuatın olmadığı bir vaxtda baş verdi. 1875-ci ilin 22 iyulundan 1877-ci ilin 29 sentyabrına qədər nəşr edilən "Əkinçi" qəzetinin ümumilikdə 56 sayı işıq üzü görmüşdür. Qəzet ayda iki dəfə 300-400 tirajla nəşr olunub.

Həsən bəy Zərdabi Mirzə Fətəli Axundova göndərdiyi məktubda qəzeti yaratmaqda məqsədini belə izah etmişdi: "Bəlkə, sizi belə bir şey düşündürür ki, nə üçün başqa birisi deyil, məhz siz, özü də müftə, bir quru "çox sağ ol" belə eşitməyə ümidiniz olmadan bu barədə zəhmət çəkirsiniz. Onda mən məcburam deyəm ki, xalqa, sənə doğma olan xalqa məhəbbətdən, avamların maariflənməsindən söhbət gedən yerdə bu sual ortaya gəlməməlidir. Xalqın, həm də




geridə qalmış avam xalqın, sənin və mənim qardaşımın maariflənməsi işinə özünü həsr edən bir adamı belə bir fikir yoldan qoymamalıdır. O, mükafatını öz-özünə, işini görə-görə vicdanı qarşısında duyacaqdır".

"Əkinçi" qəzetində Mirzə Ələkbər Sabirin, Moskvadan Nəcəf bəy Vəzirov və Əsgər ağa Gorani, Şamaxıdan Seyid Əzim Şirvani və Məhəmmədtağı Əlizadə Şirvani, Dərbənddən Heydəri və Tiflisdən Mirzə Fətəli Axundovun məqalələri və digər yazıları dərc olunurdu.



**Bəhruz Quliyev**
**"Səs" Media Qrupunun rəhbəri**

### "Əkinçi"nin səpdiyi toxumların cücərməsi

1877-ci ilin sentyabrın 29-da "Əkinçi"nin nəşrinə rəsmən xitam verilmişdi. Bundan sonra "Ziya", "Kəşkül" qəzetləri işıq üzü gördü. Sivil cəmiyyəti, milli mədəniyyəti artıq mətbuatsız təsəvvür etməyin mümkün olmadığı bir dövr başlamışdı. Təsadüfi deyil ki, Zərdabi özü "Kəşkül" qəzeti ilə "Şərqi-Rus" arasında keçən 13 ili- mətbuatsız keçən dövrü Azərbaycan cəmiyyətinin qaranlıq dövrü adlandırmışdı.

İlk dövrlər azərbaycançılıq və maarifçilik ideyalarının ifadəsi mühüm mərhələ təşkil edirdi. M.Şahtaxtlının "Şərqi-Rus"u, Ə.Hüseynzadə, Ə.Ağaoğlunun "Həyat" qəzeti məhz azərbaycançılıq ideyalarının genişlənməsi, təbliği, aydınlaşdırılması məqsədilə yaradılmışdı. Lakin bu mətbuat orqanları xalq tribunasına çevrilə bilmədilər. Bu missiyanı öz üzərinə "Molla Nəsrəddin" jurnalı götürdü.

M.Şahtaxtinskinin "Şərqi-rus" adlandırdığı qəzetin birinci nömrəsi 1903-cü il martın 30-da çıxmışdır. Əvvəllər o, həftədə üç dəfə buraxılırdı. 1904-cü il iyunun 8-dən etibarən gündəlik qəzetə çevrilmişdir. "Şərqi-rus" qəzeti XX əsrin ilk Azərbaycan qəzetidir, həm də ilk gündəlik Azərbaycan qəzetidir.

Azərbaycan mətbuatının qürurverici tarixi nəşrlərindən biri də ideyaları və onların gerçəkləşmə üsulları heç vaxt köhnəlməyən "Molla Nəsrəddin" jurnalıdır. Öz sələfləri kimi "Molla Nəsrəddin"in redaktoru Cəlil Məmmədquluzadə də ədəbi və publisist yaradıcılığı "əsrin aynası", demokratiya uğrunda mübarizədə kəskin silah, kütlələr arasında təbliğatın qüdrətli vasitəsi hesab edir, jurnalını məhz belə bir silaha çevirmək üçün var qüvvəsini əsirgəmirdi.

Mirzə Cəlilin əsas qayəsi azərbaycanlını öz xalqına, keçmişinə, ənənələrinə sədaqətli tərbiyə etmək, milləti müasir dünyaya uyğun ölçülər səviyyəsində görmək idi. "Molla Nəsrəddin" bu amallar uğrunda mübarizə fonunda yaranmışdı...

Jurnalın ilk nömrəsi 1906-cı il aprelin 7-də çıxdı. 1-ci nömrəsi 1000 nüsxə tirajla çap olunub yayılandan sonra az müddətdə "Molla Nəsrəddin" adı dillərdə gəzməyə başladı. Nəticədə jurnalın 2-ci nömrəsi 2000 nüsxə tirajla çıxarıldı.

1920-ci ildə C.Məmmədquluzadə öz ailəsi ilə İrana köçdü. 1921-ci ilin fevralında o, jurnalın nəşrini Təbrizdə yenidən bərpa etmişdir. Təbrizdə "Molla Nəsrəddin" jurnalının 8 nömrəsi çıxmışdır. Sovet hökumətinin təşəbbüsü ilə "Molla Nəsrəddin"in nəşri 1922-ci ilin noyabrında Bakı şəhərinə köçürülmüş və jurnal 1931-ci ilə qədər burada çıxmışdır.

### Azərbaycan mətbuatı Sovet dövründə

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra 1921-ci ildə nəşrə başlayan "Maarif" (cəmi 2 nömrəsi çıxmışdır) və "Qırmızı günəş" (sonra "Qızıl cavanlıq"), 1923-cü ildən çıxan "Gənc pioner", 1927-ci ildən çıxan "Pioner" jurnalları, "Azərbaycan pioneri" qəzeti və s. mətbuat orqanları yeni nəslin tərbiyə olunmasında mühüm rol oynayırdılar.

Sosialist respublika dövründə Azərbaycanda qəzetlərlə bərabər, müxtəlif səpkidə jurnalların nəşri də geniş vüsət almışdı. 1911-ci il noyabrın 29-dan Bakıda "Məktəb" adlı yeni bir uşaq jurnalı nəşrə başladı.

Sovet hakimiyyətinin ilk illərində çap olunan jurnallar sırasında "Füqəra füyuzatı" (1920-1921), "Xalq maarifi" (1920), "Yeni yıldız" (1921-1922), "Azərbaycan Ali İqtisadi Şurasının Əxbarı" (1921-1924), "Kooperativ işi" (1921-1925), "Gələcək" (1922) və başqalarının adını çəkmək olar.

Azərbaycan Xalq Maarif Komissarlığı 1922-ci ilin oktyabr ayının 14-də olan iclasında respublikada maarif işçilərinə, müəllimlərə kömək etmək, ədəbiyyatın, elmin, incəsənətin inkişafına yardım göstərmək məqsədi ilə "Maarif" adlı aylıq jurnalın nəşr olunmasını qərara aldı.

Beləliklə də, 1923-cü il yanvarın 28-də xalqımızın fikir tərcümanı və Azərbaycan Sovet Yazıçıları İttifaqının orqanı "Maarif və mədəniyyət" jurnalının 1-ci nömrəsi çapdan çıxdı. Sonralar müxtəli adlarla fəaliyyət göstərən jurnal "Azərbaycan" adını 1953-cü ilin yanvarından daşımağa başlayıb.

Sovet hakimiyyətinin ilk illərində "Kommunist" və "Bakinski raboçi" qəzetlərinin səhifələrində bölgələrdən tez-tez materiallar dərc olunurdu. 1923-cü il iyunun 16-da Bakıda "Kəndçi qəzetəsi"nin birinci nömrəsi çapdan çıxdı.

AKP MK 1923-cü il iyulun 2-də Bakıda Şərq qadınlarının, xüsusilə Azərbaycan qadınlarını ictimai-siyasi həyata alışdırmaq məqsədilə aylıq, ədəbi, ictimai və siyasi jurnal olan "Şərq qadını"nın nəşr olunmasını qərara aldı. "Şərq qadını" jurnalının 1-ci nömrəsi 1923-cü il noyabrında 40 səhifədən ibarət 1000 nüsxə tirajla çapdan çıxmışdır. Jurnalın




ilk redaktoru Ayna Sultanova olmuşdur. 1938-ci ildən "Azərbaycan qadını" adı ilə nəşr olunmağa başlayıb.

Uşaq mətbuatı da inkişaf edirdi. 1927-ci ilin fevralında "Pioner" jurnalı kütləvi tirajla çıxmağa başladı. Sonralar uşaq və məktəblilər üçün müxtəlif qəzet və jurnallar dərc olunmağa başladı.

"Vışka" (1928), "Azərbaycan gəncləri", "Molodyoj Azerbaydjana" (1919), "Bakı", "Baku" (1958), "Ədəbiyyat və incəsənət" (1934) kimi qəzetlər də o dövrün sanballı mətbuat nəşrləri idi.

1934-cü il sentyabrın 2-də "Kommunist maarifi" qəzeti nəşrə başladı. 1938-ci ildə adı dəyişdirilərək "Müəllim qəzeti" adlandırıldı. 1946-cı ilin aprelindən "Azərbaycan müəllimi" adı ilə yenidən nəşrə başlayan qəzet sonrakı illərdə də bu adla yaşadı.

İdman mətbuatımızın ən böyük tarixə malik nəşri olan "İdman" qəzeti həm də Azərbaycan mətbuatının ən qocamanlarından biri sayılır. 1932-ci ildə ilk dəfə "Azərbaycan bədən tərbiyəçisi" ("Fizkulturnik Azerbaydjana") adı altında işıq üzü görmüş "İdman" qəzetinin artıq 90 yaşı var.

Sonrakı illərdə "Ədəbiyyat" (1933)", Azərbaycan pioneri" (1938), "Kirpi" jurnalı (1952), "Bakı" (1958) və s. mətbu orqanlar meydana gəlmişdir.

İlk sayı 1952-ci ildə nəşr olunan "Kirpi" satirik jurnalı cəmiyyətdəki nöqsanları üzə çıxarmaqda, ədalətsizliyə yol verənlərin, rüşvətxorların ifşa edilməsində istifadə olunan satirik üsluba görə "Molla Nəsrəddin" ənənələrinin davamçısı kimi çıxış edirdi. "Kirpi" jurnalı uzun illər rüşvətxorların, el malını dağıdanların, mədəniyyətimizə biganə qalanların və s. ifşa edilməsi üçün qətiyyətlə mübarizə aparıb.

Sovet dövründə Azərbaycanın demək olar ki, bütün şəhər və rayonlarda qəzetlər nəşr olunurdu. Bakıda isə onlarla qəzet-jurnal dərc olunurdu. Bəzilərinin tirajı 200-300 minə, hətta yarım milyona çatırdı.

XX əsrin 80-ci illərinin ortalarından SSRİ-də başlayan yenidənqurma havası Azərbaycana da çatdı və ictimai mühitə kəskin təsir göstərdi. 1989-cu ildə "Azərbaycan" qəzeti yaradıldı. "Azadlıq" qəzeti də 1989-cu ilin 24 dekabr tarixində işıq üzü görüb. Qəzetə tanınmış jurnalist Nəcəf Nəcəfov rəhbərlik edib.

1990-cı ildə "Səs", "Zerkalo", 1991-92-ci illərdə "Yeni Müsavat", "İki Sahil", "525-ci qəzet", "Yeni Azərbaycan" qəzetləri nəşr olunmağa başladı. Daha sonra çox sayda yeni qəzetlər çıxmağa başladı.

### Mətbuata dövlət dəstəyi inkişafın qarantı oldu

1992-ci ildə hakimiyyətə yiyələnmiş AXC-Müsavat cütlüyünün birillik hakimiyyəti dövründə digər sahələrdə olduğu kimi, mətbuat və söz azadlığı sahəsində də dözülməz vəziyyət yaranmışdı.

Hakimiyyətin yuxarı eşelonunda qərar tutanların bilavasitə rəhbərliyi və göstərişləri ilə ölkədə mətbuat azadlığı hər addımda kobud şəkildə pozulur, jurnalistlər təqiblərə məruz qalırdılar. Lakin 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bütün istiqamətlərdə, o cümlədən mətbuat və söz azadlığı sahəsində inkişafın yeni mərhələsi başlandı.

Həmin dövrün ən mühüm addımı mətbuatın üzərindən senzuranın götürülməsi idi. Bu addım bir daha azad mətbuatın inkişafının dövlətin həyata keçirdiyi humanizm siyasətinin əsasında dayandığını nümayiş etdirdi. Ümummilli lider mətbuatın cəmiyyətdəki rolunu daim yüksək dəyərləndirirdi. 1995-ci il noyabrın 12-də ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılan Komissiya tərəfindən işlənib hazırlanan və ümumxalq səsverməsi yolu ilə qəbul olunan milli Konstitusiyamızda demokratik cəmiyyətin varlığını şərtləndirən bütün sahələrin inkişafına xidmət edən müddəalar öz əksini tapdı.

Eyni zamanda, hər bir sahə üzrə təkmil qanunlar qəbul olundu və onların zamanın tələbinə uyğun olaraq təkmilləşdirilməsi daim diqqətdə saxlanıldı. Heç şübhəsiz, ulu öndər Heydər Əliyevin çağdaş milli jurnalistikamızın inkişafı sahəsində ən böyük, tarixi xidmətlərindən biri KİV üzərində senzuranı tamamilə ləğv etməsi oldu. 1998-ci il 6 avqust tarixli "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanla mətbuat üzərindəki senzura aradan qaldırıldı.

Cəmiyyətin güzgüsü kimi dəyərləndirilən mətbuatın inkişafını, jurnalist əməyini daim yüksək dəyərləndirən ulu öndər Heydər Əliyevin sonrakı dövrlərdə imzaladığı digər fərman və sərəncamlara, qəbul olunan qanunlara diqqət yetirsək, bu sahənin inkişafının dövlət siyasətində önəmini daha aydın görə bilərik.

Həmçinin, 1999-cu ildə Kütləvi İnformasiya Vasitələri haqqında Azərbaycan Respublikasının Qanununun, digər hüquqi-normativ aktların qəbulu həyata keçirilib. Mətbuata böyük dövlət yardımları və güzəştlər edilib.

Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev ölkəyə rəhbərliyə başladığı vaxtdan insanların öz fikrini sərbəst ifadə etmələrini, müstəqil mətbuata geniş meydan yaradılmasını, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsini, jurnalistlərin həyat tərzinin yaxşılaşdırılmasını, mənzil-məişət məsələlərinin həllini daim diqqət mərkəzində saxlayıb.

Prezident İlham Əliyevin 31 iyul 2008-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyası" kimi mühüm bir sənəd təsdiq olundu. Konsepsiyaya uyğun olaraq 22 may 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradıldı.

Hazırda ölkəmizdə media ilə bağlı dövlət siyasətinə Medianın İnkişafı Agentliyi (MEDİA) nəzarət edir. 2022-ci ildən etibarən Media haqda Qanun qüvvədədir. Mətbuat orqanlarına müxtəlif sahələrdə yardmlar və güzəştlər edilir. Prezident İlham Əliyevin sərəncamı ilə jurnalistlərin mənzillə təminatı üçün ümumilikdə 665 mənzildən ibarət 3 bina tikilib. Onlardan ikisi- 410 mənzil artıq əvvəlki illərdə jurnalistlərə paylanıb, 3-cü bina isə istifadəyə hazırdır.



## MEDİA medianı necə dəyişir?

Hazırda informasiya əsrini yaşayırıq, dünyada da informasiya müharibəsi aparılır. Ona görə də ölkələr özlərində güclü, təsirli, dünyaya çıxa bilən media formalaşdırmağa çalışırlar. Azərbaycan dövləti də buna çalışır. Əgər əvvəllər biz informasiya və təbliğat müharibəsində ermənilərə uduzurduqsa, son dövrlərdə dünya informasiya məkanında nüfuzuzumuzu və təsirimizi artırmışıq. Məhz buna görə, 2-ci Qarabağ müharibəsi dövründə və ondan sonrakı dövrdə biz erməni təbliğat maşınını məğlub edə bildik və dünyaya Azərbaycan həqiqətlərini çatdıra bildik.

Hazırda mediamız əhalinin maarifləndirilməsi, şəffaf şəkildə məlumatlanması işini daha peşəkar həyata keçirir, dünya media məkanına inteqrasiya dövrünü dövlətin dəstəyi ilə effektiv formada keçir.

Bundan başqa, Medianın İnkişafı Agentliyi mətbuatda yazı layihələrini maliyyələşdirdiyinə görə, cəmiyyətə faydalı yazıların, dövlətimiz və xalqımızın mənafelərinə uyğun materialların, milli-mənəvi dəyərlərimizin qorunmasına, gənc nəslin vətənpərvər və milli ruhda böyüməsinə dəstək verən məqalələrin sayı artıb.

Jurnalistlərin peşəkarlığının artırılması üçün təşkil olunan təlim kursları, mətbu orqanlara birdəfəlik yardımlar, qəzet kağızının ƏDV-dən azad edilməsi və sair addımlar mətbuatın inkişafına çox böyük töhfə verib.

Xüsusən də qəzetlərə olunan yardımlar təqdirəlayiqdir və bunun artırılması vacibdir. Çünki yazılı mətbuat ölkə mediasının məbədidir, nəhəng şəxsiyyətlərimizin qurduğu və bu baza üzərində inkişaf edən böyük bir məktəbdir.

Dövlət dəstəyi sayəsində bu gün qəzetlərimiz rəngli çıxır, rəngarəng və maraqlı yazılar, təhlillər, araşdırmalar, reportajlar, müsahibələrlə zəngin olur. Çap mediası informasiya çatdırılmasında elektron mediaya uduzsa da, yazılarının keyfiyyəti, yüksək səviyyəsi, intellektuallığı, peşəkarlığı cəhətdən öz mövqeyini qoruyub saxlayır.

Yeni qəbul olunmuş Media haqda Qanun da Azərbaycan mediasının dünya arenasına çıxmasına, peşəkar və nüfuzlu bir sistemə çevrilməsinə səbəb olacaq. Eyni zamanda, jurnalistlərin sosial vəziyyətinin yaxşılaşmasına, onların mənzillə təmin olunmasına, müxtəlif güzəştlərdən yararlanmasına imkan verir.

Bütün bunlar ölkə prezidenti cənab İlham Əliyevin strateji inkişaf konsepsiyası çərçivəsində həyata keçirilən siyasətin tərkib hissəsidir. Bu siyasəti həyata keçirən icraçı orqan olan MEDİA da bu işdə qətiyyətlidir. Agentliyin mediaya yeni yanaşma qoyması, peşəkar kadr bazası, maliyyə yardımı, maddi-texniki baza ilə təmin olunmalarına dəstək verməsi bütün jurnalistlər tərəfindən alqışlanır.

Hazırda media dövlətlə cəmiyyət arasında körpü rolunu oynayır. Ona görə də, dövlət bu körpünün sağlam şəkildə bərqərar olmasına çalışır. Biz jurnalistlər də bu körpünün sağlamlığını qorumalıyıq ki, cəmiyyətimiz bu körpü üzərindən sağlam gələcəyə gedə bilsin.

## Mediamız yeni çağırışlar qarşısında

Azərbaycanda 5000-dən artıq mətbu orqanın qeydiyyatdan keçməsini, azad mətbuata və azad sözə hər cür şəraitin yarandığını söyləmək olar. Lakin əldə olunan nailiyyətlərlə yanaşı, bəzi problemlər də var.

İnformasiya texnologiyalarının sürətli inkişafı, elektron medianın media sektorunda hakim mövqeyə gəlməsi nəticəsində çap mediası cəmiyyətdə və informasiya bazarında öz mövqelərini getdikcə daha çox itirir. Reklam bazarının zəifliyini də buraya əlavə etsək, maddi müstəqilliyin nə üçün mümkün olmadığını anlamaq olar. Artıq print media rentabelli fəaliyyət imkanlarından məhrum və sponsora möhtac vəziyyətə gəlib.

Son vaxtlar qəzet oxuma meyilinin xeyli azalması faktdır. Buna müxtəlif faktorlar təsir göstərir: elektron medianın, internet saytlarının artması, mütamadi olaraq qəzet almaq üçün çox adamın maddi imkanının çatmaması, qəzetlərin operativlikdə elektron mediadan geri qalması, bəzi KİV-lərin cəmiyyətə yox, müxtəlif qərəzli məqsədlərə xidmət etməsi və s.

Bütün bunlar onu deməyə əsas verir ki, cəmiyyət artıq bu tendensiyanı həzm edə bilmir. Bu, özünü tirajlarda büruzə verir. Bu gün insanlarda əsl mətbuata ehtiyac var- sözün əsl mənasında müstəqil, qərəzsiz, obyektiv və həyatın bütün sahələrini, reallıqlarını özündə əks etdirən mətbuata.

Azərbaycan dövləti də, media siyasətini həyata keçirən MEDİA da buna çalışır. Son vaxtlar bu istiqamətdə çox böyük işlər görülür. Dövlət əlindən gələni edir, biz də öz vəzifəmizi yerinə yetirməliyik. Jurnalistika və mətbuat adına ləkə gətirən hallara qarşı bütün cəmiyyət, o cümlədən jurnalistlər özləri mübarizə aparmalıdır.

Təmsil etdiyim "Səs" qəzeti müstəqilliyimizi əldə etməyimizdən bir neçə ay qabaq nəşrə başlamışdı. Qəzetin səhifələrində görkəmli ziyalıların yazıları dərc olunurdu. Böyük oxucu kütləsinə malik qəzet ölkənin taleyinə əhəmiyyətli təsir göstərdi. Ulu öndər Heydər Əliyev də bunu öz çıxışlarında qeyd edib. Bu gün də həm "Səs" qəzeti, həm də onun nəzdində yaradılmış "Səs" TV və "Səs" İnformasiya Agentliyi ölkə mətbuatının inkişafına, dövlətimizin və xalqımızın mənafelərinə xidmət etmək kimi şərəfli vəzifəni davam etdirir.

Jurnalistika həm şərəfli, həm də məsuliyyətli peşədir. Böyük şəxsiyyətlər müəllimləri və jurnalistləri ən müqəddəs peşə sahibləri hesab ediblər. Müəllimlər insanlara təhsil, təlim-tərbiyə verir, jurnalistlər isə maarifləndirir və məlumatlandırır. Amma bu peşə müqəddəs olduğu qədər də çətin peşədir.

Azərbaycan mətbuatının şərəfli tarixi var. Və bugünkü mətbuatımız da bu şərəfli tarixi davam etdirmək, tarixi ənənəmizin bütün dünyada təbliğini həyata keçirmək iddiasını ortaya qoyur.

22 iyul Milli Mətbuat və Jurnalistika Günü münasibətilə öz adımdan və "Səs" Media Qrup adından bütün həmkarlarımızı təbrik edir, xalqımız və dövlətimiz uğrunda yerinə yetirdikləri müqəddəs vəzifələrində uğurlar arzu edirəm.

***Bayramınız Mübarək!***

---

# "Çap mediası bir çox yeni layihələrə imza atır"

**"Bugün Azərbaycan mediası özünəməxsus inkişaf yolu ilə irəliləyir. Müasir dövrün tələblərinə, oxucu auditoriyasının seçim imkanlarına uyğunlaşmaq üçün ənənəvi və yeni medianın təmərküzləşməsi prosesi gedir. Media sürətlə inkişaf edən informasiya texnologiyalarının onun qarşısında yaratdığı imkanlardan maksimum yararlanmağa çalışır". Bunu "Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova "Səs" qəzetinə açıqlamasında bildirib.**

Onun sözlərinə görə, Azərbaycan dövləti, rəhbərliyi medianın inkişafı, jurnalistlərin, media subyektlərinin sosial-iqtisadi dayanaqlığının təminində daim KİV-in yanındadır: "Bu prosesdə həm ənənəvi, həm də yeni medianın eyni dərəcədə ayaqlaşması, birlikdə irəliləməsi, peşəkarlığın artırılması dövlət səviyyəsində ardıcıl qərarların verildiyinin şahidi oluruq. Bu işdə MEDİA-nın İnkişafı Agentliyinin rolunu xüsusi qeyd etməliyik. Məhz bu qurum vasitəsi ilə dövlətin mediaya dəstək siyasəti tam şəffaf və ardıcıllıqla reallaşdırılır. Bir çox yeni layihələrə imza atılır, jurnalistlərin ixtisaslaşması, peşəkarlığının artırılması istiqamətində mütəmadi təlimlər təşkil olunur, müsabiqələr keçirilir. Çap mediasına və onların saytlarına maliyyə yardımlarının göstərilməsi, ənənəvi medianın müasir tələblərə cavab verməsi məqsədi ilə e-köşk, metriks kimi ölkəmizdə yenilik sayıla biləcək layihələri xüsusilə vurğulamaq istərdim. Bu il həm də media üçün yeni qanun layihəsinin qəbulu ilə yadda qaldı". Sevinc Seyidova onu da bildirdi ki, bu qanun layihəsi mediamızın gələcək yol xəritəsi olmaqla yanaşı, həm də KİV-in fəaliyyətinin daha sistemli olmasına şərait yaradır: "Jurnalist etikası və peşəkarlığı ön planda tutulur. Jurnalistlərin güzəştli ipoteka kreditləri verilən xüsusi kateqoriyaya aid edilməsi, çap mediasına dəstək üçün kağız məhsulları üzərindən əlavə dəyər vergisinin götürülməsi haqqında qərarlar da xüsusi qeyd edilməlidir. İnanıram ki, Azərbaycan mediası bundan sonra da dövlətimizin, xalqımızın milli maraqlarının müdafiəsi, problemlərin dəqiq, qərəzsiz və peşəkarcasına işıqlandırılması, vətəndaşların maarifləndirilməsi kimi öz üzərinə düşən funksiyaları layiqincə yerinə yetirəcək. Fürsətdən istifadə edib 22 iyul - Milli Mətbuat Günü münasibəti ilə bütün həmkarlarımızı təbrik edirəm.



***Gülyana***

# İlin ilk altı ayı ölkəmiz üçün növbəti uğurlu mərhələ olub

Cari ilin birinci yarısında ölkəmizdə sahələr üzrə aparılan islahatlar, yürüdülən həm daxili, həm də xarici siyasət sahəsində bütün parametrlər üzrə uğurlara imza atılmışdır. Eləcə də beynəlxalq arenada artan nüfuz, xüsusilə COVİD-19 pandemiyasına qarşı mübarizədə beynəlxalq ictimaiyyətə göstərilən dəstək, Qoşulmama Hərəkatının fəaliyyətinə verilən töhfələr ötən altı ayın nailiyyətləri sırasındadır. Müharibədən yenicə çıxmış dövlətdə qeyd etdiyim uğurların əldə olunması dünya tarixində nadir hadisələrdəndir.



***Kamil Qurbanlı,***
***Yeni Azərbaycan Partiyası Biləsuvar rayon Təşkilatının sədri.***

Belə ki, II Qarabağ müharibəsində Ali Baş Komandanın rəhbərliyi altında dövlət-xalq birliyinin nəticəsi olaraq əldə olunmuş tarixi qələbə, postmüharibə dövründə yeni-yeni uğur və nailiyyətlər üçün stimul oldu. Bütün sahələrdə əldə olunmuş yeniliklər daha yüksək templə inkişaf etdirildi. Baxmayaraq ki, son illər həm də bütün dünyanı, o cümlədən ölkəmizi narahat edən COVİD-19 pandemiyası ilə mübarizə illəri kimi də tarxdə qalacaq. Beləliklə, möhkəm təməllər üzərində qurulmuş Azərbaycan iqtisadiyyatı və uğurla həyata keçirilən həm daxili, həm də xarici siyasət strategiyası nəticə etibarilə bütün inkişaf istiqamətləri üzrə tarixi nailiyyətlərin əldə olunmasına imkan və şərait yaratdı. Həm II Qarabağ müharibəsi nəticəsində əldə olunan uğurla tarixi qələbənin iştirakçısı və şahidi olduq, həm də pandemiyaya qarşı uğulu mübarizə nümunəsi yarada bildik.

Müharibədən ötən 1 il 8 ay ərzində ölkə miqyasında görülmüş işlərin həcminə nəzər saldıqda demək olar ki, bu müddət ərzində ötən hər günün tarixi əhəmiyyəti vardır. Eləcə də cari ilin yanvar-iyun ayları ərzində dövlət rəhbəri, Ali Baş Komandan cənab İlham Əliyevin başçılığı altında görülmüş işlər, həyata keçirilmiş tədbirlər, icra olunmuş layihələr sübut edir ki, Respublikamız uğurla inkişaf edir, bütün istiqamətlər üzrə qarşıya qoyulmuş vəzifələr icra edilir. Nəticə etibarı ilə bu aylar ərzində ölkəmizin dünyada nüfuzu artmış, beynəlxalq arenada Azərbaycanın rolu yüksəlmiş, həmrəyliyə və köməyə ehtiyacı olan ölkələrə göstərilmiş dəstəyə, xüsusilə humanitar və maliyyə dəstəyinə görə təkcə ayrı-ayrı dövlətlərdə və cəmiyyətlərdə deyil, eyni zamanda beynəlxalq təşkilatlarda dövlətimizə olan inam və etibar yüksəlmişdir. Bu sırada Azərbaycanın Qoşulmama hərəkatındakı, Türk Dövlətləri dövlət başçılarının eləcə də Xəzəryanı dövlətlərin dövlət və hökumət başçılarının toplantılarındakı iştirakı, mədəniyyət paytaxtımız olan Şuşa şəhərində beynəlxalq səviyyəli silsilə tədbirlərin təşkili, Bakı şəhər halqası 2022-ci il Formula 1 Azərbaycan Qran-prisinin keçirilməsi kimi əhəmiyyətli tədbirlər, beynəlxalq arenadakı idman yarışlarında ardarda əldə olunan uğur və nailiyyətlər məhz bu inamı və etibarı yaradan və möhkəmləndirən amillərdir. Burada dünya nəhəngi olan Amerika Birləşmiş Ştatları və Avropa siyasətini yönəldən Avropa ittifaqı ilə sıx və səmimi münasibətlərin inkişafında qeyd etməmək olmaz. Ötən yarım il ərzində Ermənistan Azərbaycan əlaqələrində sülh istiqamətində bəzi irəliləyişlər olsa da, real nəticələr əfsus ki, hələ də yoxdur. Lakin mövqelərin konkret ifadə olunması və bundan ötrü qarşı tərəfə real təkliflərin edilməsi baxımından uğurlar da əldə edilmişdir. Belə ki, qeyd olunan təkliflərin Ermənistan tərəfindən qəbulu, delimitasiya üzrə işçi qrupunun yaradılması və sülh təşəbbüslərinə müsbət yanaşma bu sahədə əldə olunan nailiyyətlərdəndir.

Hərbi təhsildə islahatlar, yeni hərbi kontraktların imzalanması, yüksək texnoloji imkanları olan silahların alınması, Komando hərbi hissələriin yaradılması, minlərlə şəhid və qazi ailələrinə mənzillərin, avtomobillərin verilməsi, qazilərin sağlamlığının bərpası və sosial reablitasiyası, reablitasiya mərkəzlərində qazilərin ən yüksək texnoloji üstünlükləri olan pratezlərlə təminatı bu kateqoriyadan olan insanlar üçün məşğulluq marafonlarının təşkili də ötən ayların əldə olunan uğurlarıdır. Heç şübhəsiz ki, əldə olunan bütün uğurların başlıca meyarı həm də uğurlu iqtisadi siyasət, iqtisadiyyatın ümumi həcminin artımıdır.Təsadüfi deyil ki, cari ilin ilk altı ayı ərzində xarici investorların ölkəmizə marağı artmış, xüsusilə də Qarabağ və Şərqi Zəngəzura investisiya yaratmaq istəyənlərin sırası genişlənmişdir.Tranzit yüklərin, xüsusi Xəzər dənizi üzərindən yükdaşımalarının həcmindəki artım təkcə regionda deyil, bütövlükdə Avrasiya məkanında Azərbaycanın əhəmiyyətini artırır. Əldə olunan nailiyyətlər sırasına ərzaq təhlükəsizliyinin aradn qaldırılması ilə əlaqədar məsələləri, işğaldan azad edilmiş ərazilərdə görülən və görülməkdə olan işləri, həyata keçirilən layihələri də əlavə etməklə deyə bilərik ki, öz inkişafının sürətli mərhələsinə qədəm qoymuş Azərbaycan iqtisadiyyatı əldə olunan bütün uğurların əsasən insan kapitalına, əhalinin sosial rifah halının yüksəldilməsinə yönəltmişdir. Hər bir cəmiyyətdə olduğu kimi təəssüf ki, Azərbaycan cəmiyyətində də bəzən kölgə iqtisadiyyatı, korrupsiya halları aşkarlanır ki, bu kimi hallarda görülən işlərə, həyata keçirilən islahatların ruhuna ziddir. Lakin bu neqativ hallara qarşı davamlı mübarizə aparılır. Iqtisadiyyatda şəffaflığın təmin olunmasından ötrü həyata keçirilən tədbirlərin nəticəsidir ki, təkcə cari ilin I yarısında büdcə daxil olmaları proqnozdan 2 milyard manat artıq olmuşdur. Heç şübhəsiz ki, cəmi altı ay ərzində qeyd olunan naliyyətlərin əldə olunması çevik iqtisadi və siyasi fəaliyyətin, dövlət idarəçiliyi sahəsində operativliyin təminatının və əlbəttə ki, öncədən müəyyən müəyyən olunmuş stratejiyanın bəhrələridir. Böyük inam hissi ilə deyə bilərik ki, möhkəm təməllər üzərində qurulmuş Azərbaycan dövlətinin həm ölkə daxilində, həm də beynəlxalq arenada əldə etdiyi uğur və nailiyyətləri davamlı olacaqdır.

## Azərbaycan ilə tərəfdaşlıq münasibətləri Rusiya üçün nəyə görə bu qədər dəyərlidir?

Rusiyanın "Qrajdanskiye Silı.ru" şəbəkə nəşrində Aleksey Çernikovun "Azərbaycan ilə tərəfdaşlıq münasibətləri Rusiya üçün nəyə görə bu qədər dəyərlidir?" sərlövhəli məqaləsi dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalə müəllifi İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda yaranmış vəziyyət, Ermənistan-Türkiyə münasibətlərinin normallaşması və bu prosesdə Rusiyanın rolu barədə söhbət açır, ölkəmizin ölçülüb-biçilmiş müstəqil xarici siyasətini vurğulayır.




Materialda qeyd edilir ki, Rusiya-Azərbaycan münasibətləri əvvəlki kimi qarşılıqlı faydalı və işlək vəziyyətdədir, böhran dövründə iqtisadi münasibətlər xüsusi əhəmiyyət kəsb edir.

Müəllif yazır: "Nasionalyana oborona" jurnalının baş redaktoru İqor Korotçenko qeyd edirdi ki, Azərbaycan Rusiya Federasiyasının sayca çox olmayan hərbi-texniki tərəfdaşlarından biridir. O, Rusiyadan böyük həcmdə silah alır və bu halda tam tədiyə qabiliyyətli müştəri kimi ödənişi dərhal və tam həcmdə aparır, borc və kredit almır. Ekspert daha sonra əlavə edib ki, onun fikrincə, sovet nomenklatur mühitinin yetirmələri olan iki lider -Putin ilə Əliyev arasında yaxşı münasibətlər də müsbət rol oynayır".

A.Çernikovun fikrincə, Rusiya öz xarici siyasət doktrinasında Azərbaycanın tam suverenliyini çoxdan etiraf edib və cənub sərhədlərində münaqişəsiz vəziyyəti saxlamaq Rusiya üçün vacibdir. Müəllifin yazır: "Azərbaycanla normal münasibətlər həm də daxili səbəblərə görə vacibdir. Ekspertlər daim xatırladırlar ki, Qafqaz regionunda ayırıcı dövlət sərhədləri mövcud olmasına baxmayaraq, bu regionda məlum dərəcədə vahidlik var. Burada proseslər təkcə dövlətlərarası trayektoriyalar üzrə deyil, həm də etnoslararası trayektoriyalar üzrə inkişaf edir və Rusiyanın Şimali Qafqaz regionlarında vəziyyəti laxlatmaq istəsələr, bunu Cənubi Qafqaz vasitəsilə etmək nisbətən asan olar, bu isə Rusiyanın milli maraqlarına əsla uyğun deyil, Moskva Azərbaycanı özü üçün sərfəli siyasətə məcbur edə bilməz, çünki bu halda Moskva Türkiyə ilə birbaşa qarşıdurmaya getməli olardı. Türkiyə isə NATO üzvü olan yeganə ölkədir ki, onunla əlaqələr həlelik məqbul səviyyədə qalır".

Müəllif daha sonra əlavə edir ki, Moskva təkcə öz maraqlarını deyil, həm də Azərbaycanın maraqlarını nəzərə alaraq, Bakı ilə bərabər münasibətləri dəstəkləyir - hətta bu maraqlar tamamilə ziddiyyətli olsa belə.

## "Hər şeyə kütləvi aksiya ilə görüntü vermək radikal düşüncədir..."



"Bu gün ölkədə 50-dən artıq siyasi partiya var. Amma onların əksəriyyətinin fəaliyyəti hiss olunmur. Müəyyən qisim də var ki, onlar mübarizə metodunu yalnız aksiyalarda görürlər. Uzun illərdi AXCP, Müsavat, "Milli Şura" kimi qurumların mübarizə metodu yalnız aksiyalar vasitəsi ilə olur". Bunu "Səs" qəzetinə açıqlamasında Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev deyib.

Onun sözlərinə görə, bir vaxtlar aksiyaların effekti var idi: "Niyə? Çünki o zaman xarici maraqlı dairələrin təsiri daha çox idi, bir şey olanda himayəçilər ayağa qalxırdı. Yəni onların "haqqını" müdafiə etmək üçün hakimiyyətlə danışığa gedirdilər. Amma illər keçdiyi üçün mübarizə metodları da dəyişməlidir. Yalnız kütləvi aksiya ilə nəyəsə nail olmaq olmaz. Düşünürəm ki, kütləvi aksiyalardan başqa da mübarizə metodları var, indiki dövrdə yeni şərait yaranıb, yəni efir məkanı mövcuddur. Kütləvi aksiyada qışqıra-qışqıra dediyini indi rahat şəkildə jurnalistin suallarına cavab vermək formasında və yaxud öz istədiyin formada cəmiyyətə çatdıra bilərsən. Bu, yeni üsuldur və bu üsuldan istifadə etmək lazımdı. Əgər fövqəladə bir şey varsa, onunla bağlı siyasi təşkilatlar kütləvi aksiya keçirə bilər. Amma hər şeyə kütləvi aksiya ilə görüntü vermək radikal düşüncədir, özünü doğrultmayan metoddur".

E.Musayev onu da bildirdi ki, Azərbaycanda bir sıra siyasi qüvvələr və fiqurlar var ki, onlar daha çox kənar dəstək hesabına fəaliyyət göstərməyə çalışırlar: "Biz hesab edirik ki, ölkə daxili bütün məsələlər sivil qaydada masa ətrafında müzakirə olunmalıdır. İndi Prezident Administrasiyasında yeni şöbə yaranıb, əvvəllərdən fərqli olaraq indi siyasi müxalifəti dinləyənlər var. Əvvəllər bizləri dinləyən yox idi. İndi isə siyasi təşkilat təmsilçilərinin ölkənin müxtəlif sahəsi ilə bağlı təkliflərini dinləmək üçün Prezident Administrasiyasında şöbə fəaliyyət göstərir və bu şöbənin əməkdaşları ilə sıx əlaqələrimiz mövcuddur".

***Gülyana***

## "Həmin günləri səbirsizliklə gözləyirik"

"Ermənistan bir tərəfdən qeyd edir ki, Qarabağın dağlıq hissəsindəki ərazilərdən Ermənistan əsgərlərini çıxarırlar. Amma digər tərəfdən Qarabağda hərbi istehkamların qurulması işlərinə başlayıblar". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli bildirib.

Onun sözlərinə görə, bu hər halda video və digər kəşfiyyat materialları ilə öz təsdiqini tapıb: "Məsələ budur ki, bu mühəndis-istehkam, müdafiə xətlərini Azərbaycan ordusun hərəkətə keçəcək olma ehtimalı ilə yaradıblar. Onların daxilində belə bir mövqe hakimdir ki, guya Qarabağın dağlıq hissəsini keçilməz qalaya çevirəcəklər. Bunu xüsusilə dırnağarası, başlarını itirmiş liderlər səsləndirirlər. Amma Azərbaycan ordusu bu tikilən istehkamları çox asanlıqla dağıtma gücünə qadirdir və sözsüz ki, dağıdacaqlar. Pilotsuz uçuş aparatları həmin istehkamları kiçik bir əmr ilə darmadağın etmək gücünə qadirdir. Digər məsələ isə odur ki, rus sülhməramlıları bu hərəkətlərin qarşısını almaq əvəzinə onlara dəstək verir. Bütün bu addımlar bölgəldəki, xüsusilə Rusiya ilə Azərbaycan arasındakı münasibətləri gərginləşdirir. Çünki dəfələrlə bu məsələ ilə bağlı Rusiya sülhməramlılarının rəhbərinə müraciət edilib. Amma onlar heç bir nəticə çıxarmırlar. Bu çox təhlükəli addımdır. Ancaq Azərbaycan ordusu bu addımlarln qarşısını almağa qadirdir. Həmin günləri səbirsizliklə gösləyirik".



***Abutel İlhamqızı***



# İş tapmaq getdikcə niyə çətinləşir?

**Müasir dünya məkanında dövlətlərin daxili siyasəti, dövlətlərin sabitliyinə təhlükə yaradan və onların həlli üçün əməkdaşlıq tələb edən işsizlik, iqlim dəyişikliyi, epidemiyalar, iqtisadi böhran kimi problemlərin həlli ilə bağlıdır. Son üç onillikdə işsizlik təkcə inkişaf etməkdə olan ölkələrdə deyil, həm də inkişaf etmiş ölkələrdə ən mühüm problemlərdən birinə çevrilmişdir. İşsizlik kütləvi yoxsulluğa, maaşların aşağı düşməsinə gətirib çıxarır, sosial və siyasi sabitliyi təhdid edir.**

Əmək bazarında tələb və təklif arasında uyğunsuzluq, təkcə işsizliyə deyil, həm də daha geniş mənada əmək resurslarından kifayət qədər istifadə edilməməsinə gətirib çıxarır. 188 milyon işsizlə yanaşı, dünyada daha uzun saatlarla ödənişli işlərdə işləməyə hazır olan 165 milyon insan və aktiv iş axtarmağı dayandıran və ya əmək bazarından kənarda qalan 120 milyon insan var. Ümumilikdə dünyada 470 milyondan çox insan bu problemlərlə üzləşir.

Son məlumatlara və təxminlərə əsaslanaraq, araşdırmaçılar belə qənaətə gəlirlər ki, qlobal gəlir bərabərsizliyi, xüsusən də inkişaf etməkdə olan ölkələrdə düşünüldüyündən daha qabarıqdır.

İnkişaf etməkdə olan ölkələrdə 2020-22-ci illərdə ifrat və ya orta yoxsulluq şəraitində yaşayan, işləyən insanların sayının artacağı gözlənilir. Bu 2030-cu ilə qədər hər yerdə yoxsulluğa son qoymaq olan Dayanıqlı İnkişaf Məqsədə nail olmaq üçün əlavə maneələr yaradacaq. İşləyən yoxsullar hazırda 630 milyondan çox işçini və ya dünya işçi qüvvəsinin beşdə birini təşkil edir.

Hesabatda gender, yaş və ya coğrafi yerlə bağlı digər əsas bərabərsizliklər də bugünkü əmək bazarının xarakterik xüsusiyyətləri kimi müəyyən edilmişdir. Onlar həm fərdi imkanların reallaşmasına, həm də ümumi iqtisadi artıma mane olurlar. İşləməyən, oxumayan və ya peşə təhsili almayan 15-24 yaş arası gənclərin sayı xüsusilə diqqəti cəlb edir. Onların sayı 267 milyondur. Hesabat müəllifləri xəbərdarlıq edirlər ki, məşğulluqla bağlı vəziyyətə həm birbaşa, həm də dolayı əhəmiyyətli təsir, ticarət məhdudiyyətlərinin və proteksionist tədbirlərin sərtləşdirilməsinə səbəb ola bilər.

İqtisadi artıma gəlincə, onlar belə qənaətə gəlirlər ki, onun hazırkı tempi və xarakteri yalnız aşağı gəlirli ölkələrdə yoxsulluğun azaldılması və iş şəraitinin yaxşılaşdırılması səylərinə mane olur. Hesabat daha yüksək əlavə dəyərli məhsulların istehsalının stimullaşdırılmasına diqqət yetirmək üçün artımın xarakterini dəyişdirməyi tövsiyə edir.

Dünya Məşğulluq və Sosial Görünüş hesabatı işsizlik, əməyin tam istifadə edilməməsi, yoxsulluq, gəlir bərabərsizliyi əmək gəlirlərinin payları və maneələr daxil olmaqla əsas əmək bazarı problemlərindəndir. Gənclərin işsizliyi müasir dünyanın ən aktual problemlərindən biridir. Bir çox ştatlarda bu yeni problem deyil. Lakin bu, iqtisadi böhran kontekstində genişlənib və həm yüksək ixtisaslı universitet məzunları, həm də çətin həyat vəziyyətində olan gənclərin geniş təbəqəsini əhatə edir. Amma hər bir ölkədə işsizliyin müəyyən səbəbləri, onun səviyyəsi, nəticələri var. Digər fərq bu sosial-iqtisadi problemin həllində dövlətlərin həyata keçirdiyi məşğulluq siyasətinin özəlliklərindədir. Məhz buna görə də tam məşğulluğun təmin edilməsi və qorunub saxlanılması dövlətlərin makroiqtisadi siyasəti üçün prioritet məqsəd kimi qəbul edilir.

İşsizlik cəmiyyətin əsas məhsuldar qüvvəsinin - işçi qüvvəsinin böyük miqyasda israf edilməsinə, ölkənin potensial ümumi məhsulunun və milli gəlirinin əhəmiyyətli dərəcədə azalmasına səbəb olur. Açıq-aydın görünür ki, mövcud əmək ehtiyatlarından tam istifadə edilmədikdə, iqtisadi sistem istehsal imkanlarının həddinə çatmadan işləyir. Beləliklə, işsizlik səviyyəsi iqtisadiyyatın ümumi vəziyyətini müəyyən etmək, onun səmərəliliyini qiymətləndirmək üçün əsas göstəricilərdən biridir.

İşsizlik - ölkə əhalisinin əmək qabiliyyətli yaşına çatmış, işsiz olan və qanunla müəyyən edilmiş müddətdə iş axtaran insanlardan ibarət hissəsidir. Bir şəxsin işsiz kimi tanınması üçün meyarlar adətən qanun və ya hökumət sənədləri ilə müəyyən edilir və ölkədən-ölkəyə bir qədər fərqli ola bilir. Lakin bir qayda olaraq, bütün təriflərdə bir neçə əlamət mövcuddur. Eyni zamanda, müvafiq orqan və qurumların təqdim etdiyi məlumatlar əsasında işsizlər hesablanır və işçi qüvvəsi ölkə əhalisinin ümumi sayı ilə ayrı-ayrı əhali qrupları arasındakı fərq kimi müəyyən edilir.

Müasir iqtisadçılar işsizliyi bazar iqtisadiyyatının təbii və tərkib hissəsi hesab edirlər. İşsizlik növlərinin fərqləndirilməsi meyarı, bir qayda olaraq, onun səbəbidir. Ölkəmizdə keçən ilin statistikasına nəzər yetirdikdə İyunun 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı 1677,6 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 911,6 min nəfər, qeyri-dövlət sektorunda isə 766 min nəfər təşkil edib. İqtisadiyyatın neft-qaz sektorunda 32,1 min nəfər, qeyri neft-qaz sektorunda isə 1645,5 min nəfər çalışıb. Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 23,5 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,4 faizi tikintidə, 7,3 faizi emal sənayesində, 3,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 1,9 faizi mədənçıxarma sənayesində, 1,9 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olub.

Dövlət Statistika Komitəsinin aylıq hesabatına istinadən xəbər verir ki, cari ilin vəziyyətinə muzdla çalışan işçilərin sayı 1 milyon 682,1 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 902,5 min nəfər, qeyri-dövlət sektorunda isə 779,6 min nəfər təşkil etmişdir. İqtisadiyyatın neft-qaz sektorunda 31,3 min nəfər, qeyri neft-qaz sektorunda isə 1 milyon 650,8 min nəfər çalışmışdır.

**İqtisadi siyasət komitəsinin sədri** Tahir Mirkişili SİA-ya açıqlamasında iqtisadiyyat qarşısında duran əsas vəzifələrdən biri məşğulluğun təmin edilməsi-



dir, deyə vurğulayıb. Keçən illər ərzində iqtisadiyyatımız inkişaf etdikcə ölkədə açılan yeni iş yerlərinin də sayı artmışdır. Belə ki, son 15 ildə ölkədə 2.5 milyondan çox yeni iş yerləri açılmış, pandemiya dövründə iş yerlərinin ixtisar olunmaması üçün məhdudiyyətin təsir etdiyi sahələrdə işçilərin əmək haqqlarının böyük hissəsi dövlət tərəfindən ödənmişdir.

Azərbaycanda hər il bazara 100 minə yaxın yeni işçi qüvvəsi daxil olduğundan məşğulluğun təmini üçün ildə ən azı 100 minə yaxın iş yerinin açılması əsas hədəflərdəndir. Təbii ki, bu prosesdə əsas missiya özəl sektorundur. Məhz yeni iş yerlərinin yaradılması əsasən yeni investisiyalar, sahibkarlığın inkişafı, şəffaflıq hesabına baş verməlidir və bu prosses davamlı olaraq gedir. Eyni zamanda özünəməşğulluq proqramları, texniki peşə məktəblərinin inkişafı, internetin yaratdığı imkanlar işsizliyin azaldılmasında mühüm roy oynayır. Bütün bunlarla yanaşı aparılan təhlillər bu sahədə qarşımızda yeni çağırışların da olduğunu göstərir. Bəzi hallarda bazarın tələb etdiyi kadrların qıtlığı, kadrların hazırlıq səviyyəsinin bəzən aşağı olması, gənclərin ixtisas seçimində mütəxəssislərə olan tələbin bəzən nəzərə alınmaması, kadrların öz üzərlərində daimi təkmilləşmələri bəzi hallarda aparmaması kimi hallar bu kadrların işsiz qalmasına, iş yerlərinin isə boş qalmasına səbəb olur. Amma müsbət hal ondan ibarətdir ki, bu halların qarşısının alınması üçün həm dövlət, həm də özəl sektor tərəfindən lazımi kurslar, proqramlar təklif olunur və bu imkanlardan yararlanan insanların sayı durmadan artır.

**İqtisadçı Xalid Kərimli** isə işsizliyin yaranmasına bir çox səbəblərin olduğunu vurğulayır. Böhran zamanı emal sənayələrinin, iş yerlərin az olması, lazımi imkanlardan istifadə edə bilməməsi və s. əhalini işsizlik durumuna gətirib çıxarır. Elə bir hal olur ki, bir insan iş yerindən çıxır və yeni iş yeri tapana qədər müəyyən vaxt gedir. Struktur işsizlik isə adamın bilik və bacarıqları ilə bazar arasında fərq yaranması anlamına gəlir. Bilik və bacarıq köhnəlir, bazar isə tamamilə yeni şeylər tələb edir. İşsiz adam o adama deyilir ki, işi yoxdur və aktiv iş axtarır. İş axtarmayana işi olmaya-



raq qalsa belə işsiz sayılmır. İşsiz əhali üçün hökümət bir çox qaydaları müəyyənləşdirmişdir.

Ölkəmizdə belə bir qayda var ki, kənd yerində yaşayırsa və adına torpağı varsa, o, birbaşa məşğul əhali qismində gedir. Adında torpağı varsa, artıq o işsiz sayılmır. Ümumiyyətlə, işsizlik təkcə hökumətin problemi deyil. Hökumətin əsas məqsədi qeyri-neft sektorlarında müəssisələrin yaradılması, özəl sektorlarda iş yerlərinin artırılmasıdır. Əsas nüans ondan ibarətdir ki, özəl sektorlar xüsusi olaraq bununla məşğul olur. Əgər dövlət özü yaratmış olsa, daha çox yük dövlətin üzərinə düşür deyə, özəl sektorların sayının çoxalması dövlət üçün də arzuolunandır. Xüsusilə qeyd etmək lazımdır ki, bəzi sosial cəhətdən zəif təbəqələr var ki, qazilər, şəhid ailələri, əlil ailələri və s. bunlar üçün ciddi proqramlar vardır ki, əmək və əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün bir çox ictimai iş yerlərə cəlb olunurlar. Şirkətlərin özlərinə belə ailə üzvlərinin işə götürülməsi üçün vergilərdə güzəştlər olunur.

Məsələ ilə bağlı **iqtisadçı-ekspert Qubad İbadoğlu** açıqlamasında bildirib ki, işsizliyin çoxalmasının əsas səbəbi dövlət



idarəçiliyində, hüquq-mühafizə orqanlarında, məhkəmələrdə demək olar ki, hər kəsin öz tanışını, yaxınlarını işə götürməsidir. Özəl sektorlar geniş iş imkanlarına sahib olmadığı üçün yeni namizədləri işə götürməkdə çətinlik çəkirlər.

O qeyd edib ki, kimsə işsizdirsə və iş axtara-axtara qocalırsa, günəmuzd işləyirsə, rəsmi olaraq maaş almırsa, əmək müqaviləsiz çalışırsa, o da pensiya ala bilməyəcək. Qanuna görə, 25 il iş stajı olub, tələb olunan 28.800 manat pensiya kapitalını yığa bilməyənlər minimum məbləğdə pensiya alacaqlar. Odur ki, hər kəsin aşağı maaşla ən azı 25 il işləməsi gərəkdir.

***Havar Şəfiyeva***



# Yeni texnologiyaların tətbiqi Azərbaycanın inkişaf göstəricisidir

**Dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində mühüm işlər görülüb. Bu məqsədlə müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər mümkün korrupsiya hallarını aradan qaldırır və vətəndaşları dövlət xidmətlərinə yaxınlaşdırır. Azərbaycan Prezidenti İlham Əliyevin məlum Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradılıb və bu gün onun tabeliyində "ASAN xidmət" mərkəzləri xidmət göstərir ki, bu da qısa müddətdə özünü doğrultdu.**

Təbii ki, elektron xidmətlər, eyni zamanda, korrupsiya hallarının qarşısının alınması və şəffaflığın təmin edilməsinin effektiv vasitələrindən biri kimi qiymətləndirilir. Bu gün əbəs deyil ki, İKT respublikada korrupsiya ilə mübarizə, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir. Ölkədə "Elektron hökumət" portalı fəaliyyət göstərir və bu portala qoşulmuş dövlət qurumlarının elektron xidmətlərinin "bir pəncərə" prinsipi əsasında əhaliyə təqdimi də görülən işlərin məntiqi davamıdır. Bu onu göstərir ki, Azərbaycan uğurlu inkişaf modelinə malik dövlətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, bu gün Azərbaycan nəinki sənaye və kənd təsərrüfatı, o cümlədən əqli məhsullarını ixrac edir: "Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi - "ASAN xidmət" ictimai münasibətlərin və xidmətlərin müasir modelidir". Dövlət başçısının dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində həyata keçirdiyi islahatların tərkib hissəsi olan "ASAN xidmət" dövlət və özəl xidmətlərin vahid məkandan innovasiyaların tətbiqi ilə vətəndaşlara çatdırılması sahəsində uğurlara səbəb olub. Azərbaycanın "ASAN xidmət" modeli dünyanın bir çox ölkələri, beynəlxalq təşkilatları tərəfindən yüksək qiymətləndirilir və bu təcrübəyə böyük maraq var.



*"ASAN xidmət" mərkəzlərinə 54 milyona yaxın müraciət daxil olub*

## ÖLKƏ ÜZRƏ 24-CÜ "ASAN XİDMƏT" İSTİFADƏYƏ VERİLDİ

Dövlət başçısının Sumqayıta səfəri çərçivəsində 2 saylı Sumqayıt regional "ASAN xidmət" Mərkəzinin açılışı olub. Bu artıq Sumqayıtda 2-ci, ölkə üzrə isə 24-cü olan "ASAN xidmət" Mərkəzidir. Sumqayıtda fəaliyyət göstərən 1 saylı regional "ASAN xidmət" Mərkəzi gün ərzində 3 minə qədər vətəndaşa xidmət göstərir. Xidmətlərə artan ciddi tələbat nəzərə alınaraq, Sumqayıtda ikinci regional "ASAN xidmət" Mərkəzi inşa edilərək istifadəyə verildi. Ümumilikdə, ölkə üzrə "ASAN xidmət" mərkəzlərinə bu günədək 54 milyona yaxın müraciət daxil olub.

2 saylı Sumqayıt regional Mərkəzdə müxtəlif dövlət orqanları, özəl şirkət və müəssisələr tərəfindən Sumqayıt şəhəri, Qobustan, Xızı, Siyəzən və Abşeron rayonlarında qeydiyyatda olan 700 minə yaxın vətəndaşa ümumilikdə 325 xidmət göstəriləcək. Eyni zamanda, Mərkəz ölkəmizin digər regionlarında qeydiyyatda olan vətəndaşlara da ərazi məhdudiyyəti olmadan xidmət edəcək. Bu Mərkəzdə dövlət orqanlarının fəaliyyət göstərəcək işçiləri də daxil olmaqla, ümumilikdə 192 əməkdaş və 45 könüllü çalışacaq. Mərkəzdə ənənəvi olaraq "ABAD Food Hall" da təşkil edilib.

Ümumiyyətlə, bu gün Azərbaycanda gedən bütün işlər müasir səviyyədə həyata keçirilir. Hər görülən iş, aparılan islahatlar, reallaşan layihələr insanların sosial məişətinin, həyatın firəvanlığına yönəlib. Buna Azərbaycanın bütövlükdə inkişafı imkan verir. "Ölkəmiz müasirləşir, inkişaf edir. "ASAN xidmət"in fəaliyyətə başlaması bizim niyyətimizi göstərir. Biz istəyirik ki, insanlar rahat yaşasınlar, ən gözəl xidmətlərə malik olsunlar, - deyən Cənab İlham Əliyev korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizədə də "ASAN xidmət"in çox mühüm rol oynadığını vurğulayıb. Qeyd edək ki, bu mərkəzlərdə vətəndaşlara göstərilən xidmətlərdən məmnunluq dərəcəsi 98-100% arasında dəyişir. Yeni texnologiyaların, innovasiyaların tətbiqi yeni fikrin, yeni yanaşmanın yaranması Azərbaycanın inkişafının göstəricisidir.

***Nəzakət ƏLƏDDİNQIZI***



# "Aİ Azərbaycanın enerji təhlükəsizliyində oynadığı rolu yüksək qiymətləndirir"

"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan xalqının milli maraqlarının qorunması çərçivəsində həyata keçirdiyi balanslaşdırılmış xarici siyasəti nüfuzlu beynəlxalq təşkilatlar və dövlətlər tərəfindən yüksək qiymətləndirilir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva bildirib. Onun sözlərinə görə, Azərbaycan dünyada çox az dövlətlərdəndir ki, tam müstəqil, heç kimdən asılı olmayan siyasi və iqtisadi siyasət həyata keçirir: "Dünyanın nüfuzlu beynəlxalq təşkilatları Azərbaycanı etibarlı dost və müttəfiq ölkə kimi tanıyırlar.



Azərbaycan enerji sahəsində Avropa Komissiyası ilə 15 ildən artıq müddətdir ki, əməkdaşlıq edir. 2006-cı ildə Avropa İttifaqı ilə Azərbaycan arasında Anlaşma Memorandumu, 2011-ci ildə Cənub Qaz Dəhlizi ilə bağlı Bəyannamə imzalanmışdır. Bu gün Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər yüksək səviyyədə inkişaf edərək yeni mərhələyə qədəm qoymuşdur. İyulun 18-də Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayinin Azərbaycana səfəri və Prezident cənab İlham Əliyevlə görüşü Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığın və bu sahədə yaxın günlərdə imzalanacaq yeni sazişin təməlini qoydu. Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalandı. İmzalanmış Memorandum gələcək üçün bir növ yol xəritəsi funksiyasını daşıyır. Avropa İttifaqı ilə Azərbaycan arasında əvvəlcədən planlaşdırılmış bütün məsələlər icra olunub. Avropa İttifaqı Azərbaycanla enerji sahəsi ilə yanaşı digər sahələrdə də əməkdaşlığın genişləndirilməsində maraqlıdır.

Avropa İttifaqı Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu yüksək qiymətləndirir. Azərbaycandan Avropaya neft hasil edildikdən sonra 2021-ci ilin ilk günündən Azərbaycanın təbii qazı da Avropaya nəql olunmağa başladı. Bu gün Azərbaycan qazını Avropaya çatdıran uzunluğu 3500 kilometr olan Cənub Qaz Dəhlizi tam gücü ilə fəaliyyət göstərir. Bir il ərzində Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycandan Avropaya 8 milyard kubmetr təbii qaz ixrac edilib. Gələn ildən Avropaya 12 milyard kubmetr təbii qazın nəql olunması planlaşdırılır. Azərbaycan Qarabağ və Şərqi Zəngəzuru işğaldan azad etməklə böyük nəqliyyat şəbəkəsini bərpa etmiş oldu.

Zəngəzur dəhlizinin açılması dünya üçün çox əhəmiyyətli nəqliyyat qovşağının yaranmasına səbəb olacaq. Eyni zamanda Azərbaycan Xəzər dənizində böyük logistika infrastrukturuna malikdir. Bu marşrut xətlərinin bərpa edilməsi və genişləndirilməsi üçün Avropa İttifaqı ilə əməkdaşlıq imkanları görüşdə müzakirə olundu".

Deputat qeyd etdi ki, bərpaolunan enerji sahəsində də Azərbaycanda böyük layihələr icra olunub və ölkəmizdə bu sahənin genişləndirilməsi üçün böyük işlər aparılır: "Avropa İttifaqı Azərbaycanla bərpa olunan enerji sahəsində də əməkdaşlıq etməyə böyük üstünlük verir. İmzalanmış Anlaşma Memorandumu bu sahədə əməkdaşlığın böyük təməlini qoydu.

Avropa İttifaqı Azərbaycanın ən iri ticarət tərəfdaşı və əsas ixrac bazarıdır. 2024-cü ilə qədər Avropa İttifaqı Azərbaycana 60 milyon avro həcmində sərmayə yatırmağı planlaşdırır. Gələcəkdə bu sərmayənin 2 milyard avroya qədər artırılacağı nəzərdə tutulub. Bu plan artıq icra olunur. Deməli Avropa İttifaqı bütün sahələrdə Azərbaycanla əməkdaşlığa böyük önəm verir.

Bu gün Avropa İttifaqı Azərbaycanın Regionda yaratdığı reallığı qəbul edir. Qarabağ və Şərqi Zəngəzur da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Avropa İttifaqı Cənubi Qafqazda sülhün, təhlükəsizliyin təmin olunmasına böyük dəstək göstərir. Təşkilat işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi üçün Azərbaycana 4,25 milyon avroluq yeni yardım paketi təqdim etmişdir.

Son dövrlər Prezident cənab İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə bir neçə dəfə görüşü, eləcə də Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayinin Azərbaycana səfəri və səfər çərçivəsində Anlaşma Memorandumun imzalanması deməyə əsas verir ki, Azərbaycan Avropa İttifaqı üçün çox vacib və müttəfiq dövlətdir".

***Abutel İlhamqızı***



# YAP Binəqədi rayon təşkilatında jurnalistlərlə görüş keçirilib

21 iyul 2022-ci il tarixində Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı, Binəqədi Rayon İcra Hakimiyyəti, Binəqədi rayon Gənclər və İdman İdarəsi və Binəqədi Gənclər Evi Sosial Xidmət Müəssisəsinin birgə təşkilatçılığı ilə 22 İyul - Milli Mətbuat Günü münasibətilə jurnalistlərlə görüş keçirilib.Görüşdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Giriş nitqi ilə görüşü açan YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov 147 illiyini qeyd edən Azərbaycan mətbuatının keçdiyi şərəfli və keşməkeşli yoldan danışıb. Milli mətbuatımızın ötən illər ərzində çox çətin şəraitdə fəaliyyət göstərməyinə rəğmən, bütün dövrlərdə qabaqcıl ideyaların carçısı olduğunu qeyd edib. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mətbuatın problemlərinin həlli istiqamətində vacib addımların atıldığını, bu kursun Prezident Cənab İlham Əliyevin rəhbərliyi ilə davam etdirildiyini bildirib. Vətən müharibəsində qazandığımız tarixi Zəfərimizdə jurnalistlərimizin rolunu vurğulayaraq, Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında misilsiz xidmətlərindən ətraflı bəhs edib. Mətbuat nümayəndələrini təbrik edib, onlara uğurlar arzulayıb.

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Sevinc Süleymanova çıxış edərək Azərbaycan milli mətbuatının inkişaf tarixindən, Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısı Prezident İlham Əliyevin mətbuata göstərdiyi diqqət və qayğıdan danışıb. Bildirib ki, Ulu Öndərin milli mətbuata göstərdiyi diqqət və qayğı bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə mətbuatın inkişafı, onun problemlərinin həlli, jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb və bu gün də davam etməkdədir. Jurnalist peşəsinin çox böyük məsuliyyət tələb etdiyini və dövlətimizə, xalqımıza vicdanla, ləyaqətlə xidmət edən mətbuat təmsilçilərinin yorulmaz fəaliyyətini təqdir edib.

Görüşdə Binəqədi rayon Gənclər və İdman İdarəsinin rəisi Namiq Tarverdiyev, Binəqədi Gənclər Evi Sosial Xidmət Müəssisəsinin direktoru Günel Həsənova və YAP Binəqədi rayon təşkilatının sədr müavini səlahiyyətlərini icra edən Kubra Əliyarlı çıxış edərək mətbuat nümayəndələrini təbrik edib.Tədbirdə çıxış edən media təmsilçiləri göstərilən diqqət və qayğıya görə təşəkkür ediblər. Görüşün sonunda jurnalistlərə Fəxri Fərman və xatirə hədiyyələri təqdim edilib. Sonda xatirə şəkli çəkdirilib.

***ZÜMRÜD BAYRAMOVA***

# Şəhid Heydərov Qismət İsmayıl oğlunun doğum günü qeyd edilib

**Vətən müharibəsi şəhidi Heydərov Qismət İsmayıl oğlunun doğum günü qeyd edilib. Kəlbəcər rayon icra hakimiyyəti başçısının birinci müavini Eldəniz Mehtiyev, YAP Kəlbəcər rayon təşkilatının sədri Həbib Misirov və Kəlbəcər rayon icra hakimiyyətinin məsul şəxsləri Kəlbəcər rayonundan olan Vətən müharibəsi şəhidi Heydərov Qismət İsmayıl oğlunun doğum günündə Goranboy rayonunun Yolqulular kəndində məzarını, Gəncə şəhər Gülüstan qəsəbəsində isə ailəsini ziyarət etdilər.**



Çıxış edənlər dövlətimizin şəhid ailələrinə göstərdiyi diqqət və qayğıdan danışıb, hər zaman dövlətin şəhid ailələrinin yanında olduğunu bildirdilər. Şəhidin ailə üzvüləri dövlət səviyyəsində şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razı qaldıqlarını bildirmiş, ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə etmişlər.

Qeyd edək ki, evin tək oğlu olan Heydərov Qismət İsmayıl oğlu 20 iyul 2002-ci ildə Goranboy rayonunun Erkəc kəndində anadan olub. Əslən Kəlbəcər rayonundandır.



Azərbaycan Ordusunun əsgəri olan Qismət İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə böyük şücaət göstərib. 3 oktyabr 2020-ci ildə Füzuli istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olub. Subay idi. 04 oktyabr 2020-ci ildə Goranboy rayonunun Yolqulular kəndində dəfn edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra " İgidliyə görə", "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Uca Allah dövlətimizi qorusun! Şəhidlərimizin ruhu şad olsun! Allah Şəhidlərimizin doğmalarına səbr versin!

# Mərkəzi Asiya Bankı: "Qarabağa qoyulan investisiya Azərbaycanın inşaat sferasını yüksəldib"

44 günlük Vətən müharibəsi nəticəsində azad edilmiş torpaqlarımızda başladılan irimiqyaslı işlər Azərbaycanda aşağı düşmüş tikinti-inşaat sferasını yenidən yüksəldib. SİA-ya daxil olan məlumata görə, Asiya İnkişaf Bankının iyul ayı üzrə verdiyi "Asian Development Outlook-2022" məruzəsində bildirilir ki, ölkəmizdə tikinti-inşaat işlərinin həcmi 5,2% artıb. Asiya İnkişaf Bankı digər sektorların da inkişafına toxunaraq məruzəsində bildirib ki, 2022-ci ilin may ayındakı hesabatına görə, Azərbaycanın iqtisadi tempi 7,2 % artıb və bu yüksək artım tempi özünü neft sahəsində xüsusilə göstərib. Subregional artım proqnozunu da irəli sürüb. Belə ki, Qafqaza görə artım 3,6%-dən 3,8%-ə qədər, Mərkəzi Asiya üzrə isə 4%-dən 4,1%-ə qədər olacaq.

***Rövşən RƏSULOV***

TƏRS BAXIŞ+ÖZƏL

# Erməni silahlıları ilə əlbir olduqları üzə çıxan RSK-nın məqsədi nədir?



**Məlum olduğu kimi, bu günlərdə Rusiya sülhməramlıları kontingentinin (RSK) müvəqqəti yerləşdikləri Qarabağ ərazilərində (Xocalı istiqamətindəki Şuşakənddə - R.R.) erməni silahlı qüvvələri mühəndis-istehkam və texniki işlər keçirməklə mövqe möhkəmləndirmələri işlərini aparıblar. Məhz bu məlumat öz təsdiqini tapdıqdan sonra bir daha sübut olundu ki, Ermənistan 2020-ci ilin 10 noyabr Moskva Bəyanatına əməl etmək fikrində deyil, eləcə də bu məsələdə RSK-nın da məsuliyyətsizliyi göz önündədir.**

Digər məlumatlara görə, məhz bu faktı qeydə alan Azərbaycan Silahlı Qüvvələri qanunsuz mühəndis-istehkam işlərinin aparıldığı istiqamətə doğru xəbərdarlıq siqnalı verib, preventiv ölçülərini götürüb, ən əsası isə, RSK komandanlığını hadisə ilə bağlı məlumatlandırıb, insident yerinə RSK-nın şəxsi heyəti cəlb olunub. Amma!

Amma təəssüf ki, RSK üzərinə düşən məsuliyyətini nəinki icra etməyib, əksinə - qanunsuz hərbi-texniki işlər aparan separatçılara, habelə erməni silahlı qüvvələrinə təhlükəsizlik buferi yaradıb. Beləliklə, işlər davam etdirilib, hətta işlərin gecə saatlarında davam etdirilməsi üçün şərait də yaradıb (?!).

### Cavabımız nə olacaq?

Məhz bu faktdan sonra ilk olaraq Azərbaycan Prezidenti İlham Əliyevin keçirdiyi müşavirədəki fikirlərini xatırlatmaq yerinə düşərdi. Azərbaycan Prezidenti vurğulayıb ki, Rusiya Müdafiə Nazirliyinin nümayəndələri Ermənistan qoşunlarının Qarabağdan çıxarılması ilə bağlı Azərbaycana verdikləri vədləri yerinə yetirməyiblər. ”Bir neçə ay əvvəl Rusiya Müdafiə Nazirliyinin yüksək səviyyəli rəsmiləri Azərbaycanda olarkən Müdafiə Nazirliyimizə söz vermişdilər ki, Ermənistan hərbçiləri iyun ayına qədər Qarabağı tərk edəcəklər. Bu gün artıq iyulun ortasıdır, lakin bu məsələ həllini tapmayıb”, İlham Əliyev bildirib.

O, həmçinin qeyd edib ki, Ermənistan uduzan və təslim aktına imza atan tərəf kimi üzərinə düşən öhdəlikləri yerinə yetirməlidir. Belə ki, Rusiya sülhməramlıları Ermənistanı öz qoşunlarını Qarabağdan çıxarmağa məcbur etmir və bu, Bakı üçün qəbuledilməzdir: ”Əgər Ermənistan öz qoşunlarını Azərbaycan ərazisindən çıxarmaq istəmirsə, qoy bunu açıq desinlər. Cavabımız nə olacaq? Yəqin ki, indi bu haqda danışmaq yersizdir”.





### Dövlətimizin başçısı həmin vaxt qeyd etmişdi ki, Ermənistana etibar etmək olmaz!

Fakt budur ki, hələ torpaqlarımızın erməni işğalından azad edilməsi uğrunda aparılan 44 günülük müharibə zamanı Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev öz çıxış və müraciətlərində, habelə xarici medialara verdiyi müsahibələrində dəfələrlə (!) vurğulayırdı ki, əgər Ermənistan silahlı qüvvələri Bakının tələblərini yerinə yetirməyə razılıq verərlərsə o, dərhal müharibəni dayandırmaq əmrini verəcək. Məhz 10 noyabr 2020-ci ildə diz üstə çökürdülən Ermənistan kapitulyasiya aktına imza atdı, oradakı bəndləri realizə edəcəyi vədini verdi. Lakin göründüyü kimi, erməni tərəfi öz vədinə əməl etmir və bu amil özünü Prezident İlham Əliyevin ölkə jurnalistlərinə verdiyi müsahibəsindəki digər fikirlərini xatırladır. Dövlətimizin başçısı həmin vaxt qeyd etmişdi ki, Ermənistana etibar etmək olmaz!

### Bakı bu kimi məsələlərdə öz təmkin və iradəsini daim ən yüksək səviyyədə qoruyub, amma...

Artıq bütün bu faktlar öz təsdiqini dəfələrlə tapıb və görünən budur ki, bu gün qanunsuz erməni silahlılarının əməllərinə rəvac verən tərəflərdən biri də Rusiya sülhməramlıları-dır. Bu xüsusda, son müşavirədəki çıxışı zamanı Prezident İlham Əliyev bildirib ki, Rusiya Müdafiə Nazirliyinin nümayəndələri Ermənistan qoşunlarının Qarabağdan çıxarılması ilə bağlı Azərbaycana verdikləri vədləri yerinə yetirməyiblər.

Əlbəttə, Bakı bu kimi məsələlərdə öz təmkin və iradəsini daim ən yüksək səviyyədə qoruyub, amma digər tərəfdən fakt budur ki, bundan sonrakı halları da gözləmə mövqeyində dayanması ilə müşahidə etmək fikrində deyil. Son anda isə ən sərt və qətiyyətli addımın atılması hər an öz qüvvəsində qalmaqdadır.

### RSK karvanının qanunsuz silah daşıması faktı (?!)

Təəssüf və hiddət doğuran daha bir məsələ budur ki, yalnız erməni silahlıları deyil, eyni zamanda, RSK tərkibində xidmət aparan rusiyalı hərbçilər də qanunsuz əməlləri ilə yadda qalır, üstəlik bunu sübut edən daha bir fakt da bəllidir. Məsələn, bir sıra teleqram kanallarının yazdıqlarına görə, RSK-ya məxsus karvan Azərbaycan Silahlı Qüvvələrinin nəzarət etdiyi postdan keçərkən hərbi texnikanın gizli bölümündən beş ədəd, üstəlik siyahıya salınmayan Kalaşnikov markalı avtomat silah tapılıb. Azərbaycan SQ-i isə həmin karvanı geriyə qaytarıb. Sual yaranır: RSK həmin silahları kimlər üçün daşıyırmış? Təbii ki, ağıla gələn ilk istiqamət separatçılardır!

### Sökülən azərbaycanlı evi və yağmaçılığı mühafizə edən RSK ZTR-i

Bu da son deyil. Daha sonra məlum olub ki, RSK Laçında talançılıqla, yağmaçılıqla məşğuldur. Bununla bağlı məlumatı isə caliber analitik informasiya mərkəzi yazıb. Qeyd olunur ki, sözügedən məsələ ilə bağlı eksklüziv kadrlar var. Kadrlardan isə göründüyü kimi Rusiya əsgərləri ”Laçın dəhlizi” adlandırılan ərazidə 1992-ci ilə qədər Azərbaycan vətəndaşlarından birinin yaşadığı birmərtəbəli evin dam örtüyünü, eləcə də taxta-şalban konstruksiyalarını sökməklə, üzərində Rusiya Federasiyasının bayrağı olan yük maşınlarına yükləməklə məğuldur (???!!!). Onları isə ZTR-82A hərbi texnikası necə deyərlər, mühafizə edir. Məhz bu faktla da bağlı suallar yaranır.

### RSK-nın hədəfi nədir?

RSK hansı, yaxud haradan verilən əmrə, qərara əsasən müvəqqəti nəzarət etdiyi dəhlizi vasitəsi ilə Ermənistandan daxil olan destruktiv (revanşist) elementləri Azərbaycan ərazisinə buraxır?

Yaxud, müvafiq ərazisini bu yaxınlarda tərk edəcəklərini bildikləri üçün əllərinə keçənləri mənimsəmək qərarına gəliblər?

Yoxsa separatçılarla anlaşıb maddiyyat qarşılığında bu kirli əməlləri icra edirlər?

Suallar çoxdur və bu sualların cavabları istər onlar, istərsə də ermənilər tərəfindən verilməzsə həmin cavabı məhz və məhz Azərbaycan dövləti, Azərbaycan xalqı və nəhayət, Azərbaycan Ordusu verəcək, bax, bundan 1000 faiz əmin olsunlar!

*Rövşən RƏSULOV*

---

# “Dağıdıcı müxalifətin hərəkətləri düşüklük və zəiflik əlamətidir”

**“Dağıdıcı müxalif ünsürlər siyasi meydanda siyasi mübarizəni çoxdan uduzublar. Bunların heç bir siyasi konsepsiyası yoxdur.**

Bu baxımdan, onlar gündəmə gəlmək, diqqət mərkəzinə çevrilmək üçün anormal vasitələrdən istifadə edirlər”. Bunu Azadlıq Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov ”Səs” qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, müxalifət düşərgəsini təmsil edən Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı və digərləri bəzi xarici qüvvələr tərəfindən maliyyələşirlər və onların tapşırığı ilə gündəmdə qalmaq və müxalifətçilik rolunu oynamaqdan ötəri çirkin vasitələrə əl atırlar: ”Bu faktdır ki, daxili və xarici qüvvələr Azərbaycan dövlətinin əldə etdiyi uğurlara qısqanclıq hissi ilə yanaşırlar və uğurlarımıza kölgə salmaq istəyirlər. Amma nə xarici qüvvələrin, nə də ki, müxalifətin ölkəmizlə bağlı məkrli planları baş tutmayacaqdır. Çünki Azərbaycan dövlətinin inkişafı və beynəlxalq aləmdə artan nüfuzu göz qabağındadır. Ümumiyyətlə, bu gün müxalifətin istəyi ancaq özlərini reklam etmək və bir müddət gündəmdə qalmaqdır. Müxalifət reallığı özündə əks etdirməyən fikirlər səsləndirərək özlərinin varlıqlarını ortaya qoymağa çalışırlar. Müxalifətin hərəkətləri düşüklük və zəiflik əlamətidir. Lakin hər dəfə də olduğu kimi, bunların bütün atdığı addımları fiaskoya uğrayır. Bu gün müxalifətin özü də çox yaxşı bilir ki, onların xalq tərəfindən heç bir dəstəyi yoxdur. Sadəcə olaraq, bu şəxslər sosial şəbəkələrdə qərəzli, çırkin mövqelərlə çıxış etməklə gündəmdə qalmağa çalışırlar. Əminliklə deyə bilərəm ki, bundan sonrada ictimaiyyət onlara dəstək verməyəcək. Bu inkişafdan narahat olan qüvvələr isə hay-küy salıb, uğurlara kölgə salmağa çalışırlar. Yəni müxalifət qüvvələri milli maraqlara əks addımlar atırlar. Təəssüflər olsun ki, müxalifət qüvvələri Azərbaycanı istəməyən qüvvələrin maraqlarına xidmət edirlər. Amma onların nə deməsindən və nə etməsindən asılı olmayaraq bu qüvvələr heç nəyə nail olmayacaqlar. Müxalifətin iflası qaçılmazdır”.




*Gülyana*

# Milli medianın qlobal məsələləri

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

**1875-ci ildə görkəmli maarifçi Həsən bəy Zərdabi tərəfindən "Əkinçi" qəzeti ilə əsası qoyulan 147 yaşlı Azərbaycan mətbuatı hazırda öz funksiyalarını necə yerinə yetirir? Bu yazımızda bu problemləri analiz etməyə çalışacağıq.**



***Elçin Bayramlı***

Bünövrəsi 1875-ci il iyulun 22-də "Əkinçi" qəzeti ilə qoyulan və XIX əsri cəmi bir neçə qəzet-jurnalla başa vuran milli mətbuatımız bu gün minlərlə media orqanın timsalında yaşamaqdadır. Say və tiraj müqayisəolunmazdır. Bəs peşəkarlıq və oxucu qiyməti necə? Gəlin bu suala birlikdə cavab axtaraq.

Son vaxtlar qəzet oxuma meylinin xeyli azalması faktdır. Buna müxtəlif faktorlar təsir göstərir: elektron medianın, internet saytlarının artması, mütamadi olaraq qəzet-jurnal almaq üçün çox adamın maddi imkanının çatmaması, ölkəmizdə çıxan saysız qəzetlərin mövzu monotonluğundan oxucuların bezməsi, bir çox media orqanının cəmiyyətə yox, müxtəlif qərəzli məqsədlərə xidmət etməsi və s.

Bütün bunlar onu deməyə əsas verir ki, cəmiyyət artıq bu tendensiyanı həzm edə bilmir. Bu özünü tirajlarda biruzə verir. Deməli, insanlarda əsl mətbuata ehtiyac var-sözün əsl mənasında, müstəqil, qərəzsiz, obyektiv və həyatın bütün sahələrini, reallıqlarını özündə əks etdirən mətbuata.

Bu gün 147 yaşlı Azərbaycan mediası ziddiyyətli bir dövrünü yaşayır. Çap mediası cəmiyyətdə və informasiya bazarında öz mövqelərini getdikcə daha çox itirir. Reklam bazarının da yoxluğunu da buraya əlavə etsək, problemin səbəblərini aydınlaşdırmaq olar. Artıq print media rentabelli fəaliyyət imkanlarından məhrum və sponsora möhtac vəziyyətə gəlib. Faktiki olaraq, hazırda qəzetlərə dövlət dəstəyi, MEDİA-nın yardımları olmasa, çoxu öz fəaliyyətini dayandırmalı olar. Lakin qəzet-jurnallar yazılı tarixdir, tarixi sənəddir ona görə də, onların yaşaması lazımdır. Məhz bu səbəbdən dövlət haqlı olaraq çap mediasına daha çox yardım edir.

Məlum olduğu kimi, müasir jurnalistikanın əsas problemlərindən biri operativlik və obyektivlik arasında seçim etmə üsuludur. Əsl jurnalistlər hər hansı informasiya daxil olduqda onu tam dəqiqləşdirməmiş, tərəflərin (ehtiyac yarandıqda həm də ekspertlərin) fikrini öyrənməmiş və konkret fakt əldə etməmiş yazı yazmırlar və operativliyi obyektivliyə qurban verməkdən çəkinmirlər. Çünki düzgünlüyü aydınlaşdırılmamış operativ məlumatdansa, obyektivliyi təsdiq olunmuş gecikmiş informasiya daha üstündür.

Qeyri-peşəkarlar isə, hətta şayiələri, dezinformasiyaları və sifarişli şantajları belə ucuz sensasiya xatirinə tələsik yayımlamaqla məşğuldurlar. Nədən ki, bu "jurnalistlər" müasir jurnalistika texnologiyaları haqda təlim və ya təcrübə keçməyiblər, ona görə də informasiyanın necə alınması, hansı mənbələrdən təsdiqlənməsi, faktların hansı yolla əldə edilməsi, tərəflərin mövqelərinin verilməsi, ekspert fikrinin alınması və s. bu kimi jurnalistika texnologiyalarından xəbərsizdirlər. Bu gün mediada çalışanların bir çoxu da məhz elə bu cür jurnalistlərdir. Ona görə də, bu



qəzetlərin səhifələrində tirajlanan yazıların faktoloji yükü az olur, jurnalist neytrallığı kənara qoyulur, obyektivlik isə hiss olunmur. Əksinə, yazının elə ilk cümlələrindən qərəzlilik, subyektivlik və fakta əsaslanmamaq hiss olunur.

Amma mediada əsl peşəkar jurnalistlərin varlığını etiraf etməmək ədalətsizlik olardı. Amma təəssüf ki, bu media mənsubları çalışdıqları mətbuat orqanının tələblərinə, strategiyasına və siyasi xəttinə qarşı şıxa bilmədiyindən yazılarını da tələb olunan kontekstdə yazırlar. Bir çox hallarda onların peşəkar olduğunu bilən sifarişçilər, həmin jurnalistlərə şantaj xarakterli yazılar sifariş edirlər. Yaxşı pul müqabilində vicdanlarını arxa plana keçirən peşəkarlar isə, dilimizin imkanlarından və informasiyanın psixoloji təsir texnologiyasından geniş istifadə edərək yazının faktoloji yükünün olmadığını və qeyri-obyektivliyini ört-basdır edirlər.

Son illərdə ölkə mediasının qara yarasına çevrilən "reket mətbuat" sektoru sürətlə "inkişaf" edir. Azərbaycanda qəzet-jurnal təsis etmək, informasiya saytı açmaq o qədər asan və rahatdır ki, çoxları bu həvəsə düşərək pul qazanmağın çirkli üsullarından istifadə etməyə çalışırlar. Belə halların nəticəsində jurnalistlər cəmiyyətin gözündən düşür. Oxucu hansının həqiqi media, hansının saxta media olduğunu çox vaxt aydınlaşdıra bilmir. Yəni qurunun oduna yaş da yanır.

Bir sıra qəzetlər isə, xaricdən maliyyələşir və ölkə daxilində öz missiyalarını həyata keçirirlər. Belələri, ölkədə milli, dini ayrı-seçkilik salmaq, cəmiyyəti parçalamaq, mənəvi dəyərləri çökdürmək, siyasi böhran vəziyyəti yaratmaq və s. bu kimi çirkin işlərlə məşğuldurlar. Dəfələrlə deyilsə də, yazılsa da, bu sahədə hələ ki, ciddi tədbir görülməyib. Hökumət bu məsələdə hədsiz dözümlülük nümayiş etdirir. Dövlət bu sahədə nizamlayıcı tədbirlərə əl atsa, o saat həmin "jurnalistlər" bir haray-həşir qoparacaqlar ki, "vay qoymayın, söz azadlığı pozuldu".

Mətbuat nümayəndələri cəmiyyətdə gedən prosesləri dolğun və düzgün qiymətləndirməlidirlər. Qeyri-obyektiv mövqedən, təhqiramiz ifadələrdən, təzyiqlərdən, yersiz iddialardan və şantajdan əl çəkilməlidir. Normal və haqlı tənqidi heç kim pis qəbul etmir. Əslində, insanların öz hüquqlarını, şərəf və ləyaqətlərini qorumaları təbii sayılmalıdır. Ona görə də, belə hallarda məhkəmə qanuna əsaslanan cəzalanma qərarı verməyə bilməz.

Bütün dünyada media cəmiyyəti maarifləndirmək və obyektiv informasiya ilə təmin etməkdən ötrü fəaliyyət göstərir. Jurnalist professional peşədir və bu peşənin spesifik xüsusiyyətləri var. Jurnalist etik normaları, qanunvericiliyi, obyektivliyi, dövlətçiliyi və s. humanist prinsipləri əldə rəhbər tutaraq maarifləndirici və məlumatlandırıcı fəaliyyət göstərməlidir. Jurnalistika bir ictimai elm sahəsidir və bu sahənin də spesifik yaradıcılıq texnologiyaları var. Jurnalistin yayımladığı materialda şəxsi mövqeyi olmamalıdır. Bu gün mətbuatımızda çıxış edən kənar yazarların və bəzi jurnalistlərin isə, çox zaman konkret mövqeyi və subyektiv fikri olur. Bu konteksdən çıxış edib Azərbaycan medaisını nəzərdən keçirdikdə belə qənaətə gəlmək olar ki, bizdə peşəkar jurnalistlər azlıq təşkil edir, subyektiv və məqsədli yazarlar isə olduqca çoxdur.

Media sektorunda ən əsas problemlərdən biri də, jurnalistlərin sosial vəziyyətidir. Azərbaycanda jurnalistlərin sosial durumun ağır olması, çətin şəraitdə çalışması heç kimə sir deyil. Sovetlər dövründə mətbuat işçiləri əhalinin yüksək təbəqəsini təşkil edirdilər və sosial təminat cəhətdən əksər qruplara nisbətən üstün mövqedə idilər. Lakin hazırda vəziyyət tamamilə bunun əksinədir.

İndi jurnaslistika, mətbuat sahəsində sosial vəziyyət ürəkaçan deyil. Bu sahədə çalışanların 80 faizindən çoxunun şəxsi mənzili yoxdur, onsuz da aşağı olan əməkhaqqının yarısı kirayə haqqına sərf olunur. Başqa ölkələrlə müqayisədə Azərbaycan jurnalistləri 5-10 dəfə aşağı maaş alırlar.

Misal üçün, elə qonşu ölkələr-Rusiya, Türkiyə və İranda eyni işi görən jurnalistlər azı 2-3 min manat əməkhaqqı alırlar. Hətta iqtisadi imkanlar cəhətdən Azərbaycandan 4-5 dəfə aşağı olan Gürcüstanda media mənsublarının maaşları bizdən 2 dəfə yüksəkdir.

Təsəvvür edin ki, jurnalistlər eyni işə görə 10 -15 il öncə də eyni əməkhaqqı alırdı, indi də. Bu müddətdə bütün sahələrdə çalışanların maaşlarında dəfələrlə artımlar edilib, bazar-dükanda qiymətlər neçə dəfə artıb.

Başqa sözlə, jurnalistləri ölkənin yoxsulluq həddində yaşayan kəsiminə aid etmək olar. Azərbaycanda aylıq yayşayış minimumunun 200 manatın üzərində olmasını nəzərə alsaq, ortalama 500 manat əməkhaqqı alan jurnalistin ailəsində adambaşına bu məbləğdən xeyli aşağı vəsait düşdüyünü aydın görmək olar. Təxminən yaşayış minimumdan 2 dəfə aşağı. Belə bir ağır vəziyyətdə yaşayan, problemlərdən başı açılmayan insandan hansı iş keyfiyyəti, hansı peşəkarlıq, hansı iş həvəsi gözləmək olar?

Göründüyü kimi, problemlər fundamental və kompleksdir. Bu, birbaşa dövlət-cəmiyyət- media üçbücağındakı qarşılıqlı vəziyyətlə analoji müstəvidə inkişaf edən bir sistemdir.

Dövlət ciddi və peşəkar mediaya ona görə dəstək verməlidir ki, həm cəmiyyətin rəğbətini qazansın, həm də beynəlxalq məkana çıxış imkanları yaransın. Cəmiyyət isə +18 və şou mövzuların başını buraxıb ciddi siyasi, iqtisadi, mədəni, elmi mövzularda materialları oxumalıdır. İş adamları, şirkətlər peşəkar mediaya reklam verməlidir. Televiziyalar peşəkar qəzetləri təşviq etməli, onların xülasəsini verməlidir.

Bundan sonra medianın İP qazanmaq naminə cəmiyyətə zərərli, mənəvi dəyərlərə zidd materiallar verməsinə ehtiyac qalmayacaq. Satışdan, abunədən, reklamdan normal gəlir əldə edəcəklər. Sağlam rəqabət mühiti yaranacaq. Nəticədə peşəkar, savadlı şəxslər işə cəlb ediləcək, medianın nüfuzu artacaq. Cəmiyyət görəndə ki, media həqiqətən 4-cü hakimiyyətdir, ona dəstək verəcək. Media da dövlət və cəmiyyət arasında öz funksiyasını daha layiqli yerinə yetirəcək. Cəmiyyətimizin və dövlətimizin maraq və mənafelərinin təmin olunmasına öz töhfəsini verəcəkdir. Son nəticədə həm dövlətimiz, həm cəmiyyətimiz qazanacaq.

Göründüyü kimi, MEDİA-nın bu siyasəti çox strateji və effektiv prespektivə əsaslanır. Dövlətin dünya təcrübəsi ilə milli ənənələri uzlaşdıraraq hər 3 tərəfi (cəmiyyət, dövlət və media) qane edəcək optimal tənzimlənmə mexanizmi yaratma cəhdi təqdirəlayiqdir. Cəmiyyətdə isə nəhayət ictimai qınaq mexanizmi formalaşmalıdır.

Çünki məsuliyyət tələb edilmədikdə cəza mexanizmi, ictimai qınaq olmadıqda isə ortada ciddi mətbuat olmur. Bu ikisinin arasında 3-cü yolun formalaşması lazımdır. MEDİA məhz bunu həyata keçirməyə çalışır və medaimızın inkişafını təmin etmək üçün lazım olan bütün addımları atır.

Əlbəttə, əgər ortada dövlətin iradəsi, xalqın dəstəyi, jurnalistlərin əməyi varsa, onda əminliklə əmək olar ki, mediamız müasir dövrdə peşəkar və nüfuzlu bir sistemə çevriləcək, dünya informasiya məkanında öz layiqli yerini tutacaq. Bütün həqiqi jurnalistləri 22 iyul Milli Mətbuat Günü münasibətilə təbrik edirik, peşə bayramınız mübarək!

SON SƏHİFƏ
SƏS
22 iyul
2022-ci il

# Bakıda marşrut avtobusu yanıb



Bakıda marşrut avtobusu yanıb. Bakı Nəqliyyat Agentliyindən SİA-ya verilən məlumata görə, dünən saat 12:00 radələrində Salyan şosesinin Bibiheybət məscidinin qarşısından keçən hissəsində "BMH" MMC-nin istismarında olan 120 nömrəli müntəzəm marşrut xətti üzrə 01 BS 785 DQN-li avtobusun mühərriki yanıb. Yanğın avtobus yaranmış texniki nasazlıqla əlaqədar xətdən kənarlaşdırılaraq qaraja yollanan zaman baş verib. Hadisə nəticəsində xəsarət alan olmayıb. Lakin avtobus yararsız hala düşüb.

# Məktəblər açılmayacaq?

## ÜST xəbərdarlıq etdi: Məktəblərin açılması yoluxma riskini artıracaq!

**Ümumdünya Səhiyyə Təşkilatı payız və qış mövsümündə COVID-19-la bağlı vəziyyətin ağır ola biləcəyini deyib. Ucnoqta.az xəbər verir ki, ÜST-nin Avropa üzrə direktoru Hans Kluqe bildirib ki, yeni növ koronavirus potensial öldürücü xəstəlik olaraq qalır. Son 6 həftədə 53 ölkədə yoluxma üçqat artıb.**

Xəstəxana şəraitində müalicə olunanların sayında ikiqat artım müşahidə olunur. Avropada hər həftə 3000 koronavirus xəstəsi ölür. Kluqe bildirib ki, payızda məktəblərin açılması və insanların qapalı məkanlara daha çox toplaşması yoluxma riskini artıracaq.

Digər tərəfdən, insanların xəstəliyə qarşı diqqətinin azalması Avropada payız və qışın ağır keçəcəyini deməyə əsas verir. Tədbir görmək üçün payızı gözləmək gec ola bilər. ÜST-nin yoluxma riski ilə bağlı xəbərdarlığını nəzərə alaraq ölkəmizdə yenidən distant təhsil tətbiqi mümkündürümü?

Millət vəkili Fazil Mustafa bildirdi ki, yoluxma riski ilə bağlı məktəblər açılmasa, təhsilimiz geri düşəcək: "Ümumdünya Səhiyyə Təşkilatının bunu hansı mülahizələrlə etdiyini demək çətindir. Ancaq düşünürəm ki, burada süni amillər də var.

Çünki pandemiyanın növünün ortada olduğu barədə inandırıcı məlumatlar verilməlidir. Hələ ki, belə bir məlumat yoxdur. Ancaq bütün hallarda təhlükə olarsa, buna getmək olar. Hələ belə bir təhlükə yoxdur və belə bir fikirin ortaya atılması da təhlükəlidir. Çünki təhsilin geriləməsi bizim cəmiyyətdə fəlakətli bir vəziyyət yaradacaq. Bizdə qaydalara əməl etmək prinsipləri də çox çətindir.



Bir məktəbdə əgər normadan üç dəfə artıq şagird təhsil alırsa, bu şəraitdə qorunmaq da böyük problemdir. Evdə təhsil imkan verməyəcək ki, məktəbdəki səviyyədə təhsil alsınlar. Bu olduca narahatedicidir. Onsuzda məktəbdə də təhsil o qədər güclü deyil. Ancaq ən azından kollektiv təhsil olması uşaqlarda təhsillə bağlılığı təmin edə bilir. Fərdi qaydada olanda bu daha da çətinləşir".

Təhsil üzrə ekspert Elşən Qafarov deyir ki, Ümumdünya Səhiyyə Təşkilatı bununla bağlı öz proqnozlarını verir və hər bir dövlət, o cümlədən Azərbaycan öz qərarlarını qəbul etməkdə müstəqildir: "Düşünmürəm ki, qapanma olacaq və tədris dayanacaq. Təhsil elə bir sahədir ki, burada insanlar daha çox bir yerə toplaşır. Bu barədə, Nazirlər Kabinetinin sanitar-epidemioloji vəziyyətin gözlənilməsi ilə bağlı qərarları var. Həmin qərarın tələblərini nəzərə almaqla tədris prosesi davam etdirilməlidir. Heç bir halda tədris prosesini dayandırmaq olmaz. Biz bir dəfə buna getdik və acı nəticələrini gördük. Hələ də bu nəticələr tam olaraq aradan qaldırılmayıb. Düşünmürəm ki, hökumət təhsil müəssisələrinin qapanmasına gedəcək. ÜST beynəlxalq təşkilatdır, öz proqnozlarını verir, dövlətlər onun dediyini göstəriş kimi qəbul edə bilməz".



# Ən zərərli ayaqqabılar



Rusiyalı fizioterapevt, refleksoloq Marianna Yasneva ən zərərli ayaqqabıların adını çəkib. SİA-nın əldə etdiyi məlumata görə, ekspertin şərhini "Moskovski Komsomolets" aparır. Belə ki, həkimin fikrincə, sağlamlıq üçün ən böyük təhlükə dabanlı ayaqqabılardır. Bundan əlavə, düz bir dabanı olan məhsullar, həmçinin bir cüt ölçüsünə uyğun ölçülər, insanın dayaq-hərəkət sisteminin vəziyyətində pisləşməyə səbəb ola bilər. "Bir az müavinət və daban qaldırma olmalıdır. Ayaqqabıların digər dəyişiklikləri mexanikanın pozulmasına səbəb olur.

***Nazlı***



# Xadimə işlədiyi evdən külli miqdarda pul oğurladı

Bakıda xadimə işlədiyi evdən külli miqdarda oğurluq edib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, Səbail RPİ-nin 9-cu Polis Bölməsinə iyulun 13-də rayon ərazisindəki mənzillərin birində seyfdən 10.000 manat və 8.000 avronun oğurlanması barədə müraciət daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən xadimə, Bakı şəhər sakini R.Cabbarova müəyyən edilərək saxlanılıb. Araşdırma aparılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**